HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 dekabr 2016-cı il
№023 (37)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## GÜRCÜSTANIN BAŞ NAZİRİ GEORGİ KVİRİKAŞVİLİ İSTNBULDA BAŞ VERMİŞ TERROR AKTINI QINADI



Dünyanın tərəqqipərvər qüvvələri dekabrın 10-da İstanbulda törədilmiş terror aktını qınayan bəyanatlar vermişlər. Gürcüstanın Baş Naziri cənab Georgi Kvirikaşvili də Türkiyədə baş vermiş terror hadisəsinə münasibət bildirmiş, türk xalqına və hökumətinə başsağlığı vermişdir.

Baş Nazir bəyan etmişdir: “İstanbulda meydana gələn və çox sayda insanın ölümünə səbəb olan terror hadisəsinə görə dərin üzüntülərimi ifadə edir, həyatını itirənlərin ailələrinə, türk xalqına və hökumətinə başsağlığı verirəm. Məsum insanların həyatlarına qəsd edən və can sağlığını təhdid edən zorakılığın hər növünü kəskin şəkildə qınayıram. Gürcüstan dövləti olaraq, terrora qarşı həyata keçirilən mübarizədə bütün dost ölkələrlə birlikdəyik. Terror vəhşiliyinin öhdəsindən ancaq birgə mübarizə və əməkdaşlıqla gəlinə biləcəyinə inanırıq, bu istiqamətdəki bütün təşəbbüslərə tərəfdarıq”.

Türkiyənin Gürcüstandakı səfirliyi öz Facebook səhifəsində gürcü xalqına və hökumətinə bu mənfur hadisədən sonra göstərdikləri səmimi həmrəyliyə görə təşəkkürünü bildirib.

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı və “Yeni Yol” olaraq, biz də öz tərəfimizdən bu bədnam terror hadisəsindən sarsıldığımızı ifadə edir, türk xalqına, hadisə zamanı həlak olanların ailələrinə dərin hüznlə başsağlığı veririk.

## LEVAN İZORİYA TÜRKİYƏ RESPUBLIKASININ SƏFİRİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın müdafiə naziri Levan İzoriya Türkiyə Respublikasının ölkəmizdəki səfiri Zəki Ləvənt Gümrükçü ilə görüşüb.

Görüşdə müdafiə sahəsində əməkdaşlıq məsələləri və gələcək planlar müzakirə olunub.

Levan İzoriya İstanbulda baş verən terror aktından dolayı üzüntülərini dilə gətirib. O, Türkiyə Respublikasının səfirinə, hökumətinə və həlak olanların ailələrinə başsağlığı verib.

Xatırladaq ki, İstanbulda baş vermiş son terror aktı nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar Gürcüstan prezidenti Georgi Marqvelaşvili və hökumət başçısı Georgi Kvirikaşvili də türk xalqına və Türkiyə dövlətinə öz üzüntülərini çatdırmışlar.

Müdafiə naziri regional formatda Türkiyə ilə ikitərəfli, eyni zamanda Gürcüstan-Türkiyə-Azərbaycan üçtərəfli əməkdaşlığının əhəmiyyətini xüsusi vurğulayıb. “Türkiyə NATO-ya üzv olan ölkə kimi hər zaman Gürcüstan silahlı qüvvələrinin qurulması işində fəal iştirak edib. Türkiyə bu istiqamətdə bu gün də fəallıq edir. Biz silahlı qüvvələrin inkişaf planını hazırlamışıq, bu planda Türkiyə də iştirak etmək və öz töhfəsini vermək arzusundadır. Biz həmçinin Gürcüstan, Azərbaycan və Türkiyə arasında müdafiə sahəsində mövcud olan üçtərəfli əməkdaşlıq formatının möhkəmləndirilməsi məsələsini müzakirə etdik.

Ölkəyə səfərim zamanı ölkənin birinci şəxsləri ilə görüşəcəm; əsas müzakirə mövzularından biri üçtərəfli əməkdaşlıq formatının möhkəmləndirilməsi məsələsi olacaq” – deyə müdafiə naziri qeyd edib. Levan İzoriya mövcud NATO-Gürcüstan paketinin (SNGP) implementasiyası prosesində Türkiyənin dəstəyini, qurumda aparılan dəyişikliklər prosesi üçün hərbi təhsil və müdafiə sahəsində mövcud təcrübələrin mübadiləsi baxımından Türkiyə ilə əməkdaşlığın əhəmiyyətini yüksək qiymətləndirib.

## GÜRCÜSTANA SƏRMAYƏ QOYULUŞUNDA AZƏRBAYCAN LİDERDİR

2016-cı ilin üç kvartalı ərzində Azərbaycan Gürcüstana 434 milyon sərmayə qoyub, bu da keçən ilin eyni dövrünün göstəricilərindən 9,6% çoxdur. Məlumatı Gürcüstan Milli Statistika Xidməti yayıb. Yayılan məlumatda üçüncü kvartalda Gürcüstan iqtisadiyyatında Azərbaycan sərmayəsinin həcmi 151 milyon dollar təşkil edib ki, bu da keçən ilin analoji dövrünün göstəricilərindən 15,1% az vəsait deməkdir.

Milli Statistika Xidmətinin hesabatına əsasən, Gürcüstan iqtisadiyyatına qoyulan sərmayənin həcminə görə Azərbaycan birincidir. Məlumatda Gürcüstan iqtisadiyyatına yatırılan ümumi xarici investisiyanın 33%-inin Azərbaycanın payına düşdüyü bildirilir.

Hesabat dövründə Gürcüstan iqtisadiyyatına 2015-ci ilin üçüncü kvartalına nisbətən 4,1% az sərmayə yatırılıb.

Gürcüstana sərmayə qoyuluşuna görə Türkiyə ikinci pillədədir. Hesabat dövründə Türkiyə 111 milyon dollar və ya ümumi sərmayənin 24%-i qədər vəsait yatırıb. Üçüncü pillədə duran Lüksemburq Gürcüstan iqtisadiyyatına 52 milyon dollar və ya yatırılan ümumi sərmayənin 11%-i qədər vəsait qoyub.

Siyahıya Gürcüstana sərmayə yatıran Çexiya, Çin, Niderland, ABŞ, Yaponiya, Panama və Kipr kimi dövlətlərin də adı düşüb.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ AZƏRBAYCANIN MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRİ İLƏ GÖRÜŞ KEÇİRİB



Gürcüstanın baş naziri Georgi Kvirikaşvilinin Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayevlə görüşü olub.

Görüşdə Gürcüstanın və Azərbaycanın sürətlə inkişaf edən strateji tərəfdaşlığının mədəni münasibətlərlə bağlılığı vurğulanıb.

Bundan başqa, söhbətin gedişində beynəlxalq “Mədəniyyət və innovasiya və inkişaf üçün yaradıcılıq” forumunda müzakirə olunan mövzulara xüsusi diqqət ayrılıb. Qeyd edək ki, Əbülfəs Qarayevin də iştirakçısı olduğu bu forum Avropa İttifaqı və Gürcüstanın mədəniyyət və tarixi abidələrin mühafizəsi nazirliyi tərəfindən təşkil edilib.

Xatırladaq ki, beynəlxalq forumun işinə qatılmaq üçün Azərbaycanın mədəniyyət və turizm naziri dekabrın 8-də Tbilisiyə səfər edib.

## GÜRCÜSTAN PARLAMENTİ 2017-Cİ İL DÖVLƏT BÜDCƏSİNİ TƏSDİQLƏDİ



Dekabrın 14-də Gürcüstan parlamenti 2017-ci il üçün ölkənin dövlət büdcəsini təsdiqləyib.

Müxalifətin əleyhinə səs verməsinə baxmayaraq, büdcə layihəsi 102 deputatın səsilə qəbul olunub.

2017-ci ilin dövlət büdcəsi 1 dolların 2,5 larilik məzənnəsi nəzərə alınmaqla qəbul edilib. ÜDM-in 4%-lik artımı və inflyasiyanın 4%-dən çox olmayacağı da büdcədə öz əksini tapıb. Büdcədə ÜDM adambaşına 9 min 627,9 lari təşkil edir.

Qəbul edilən sənədə əsasən, 2017-ci ildə Gürcüstanın dövlət büdcəsinə daxilolmalar 11 milyard 457 milyon lari planlaşdırılıb. Bu, keçən ilin göstəricilərindən 1,3 milyard lari çoxdur.

Dövlət büdcəsinin gəlirləri 9 milyard 489 milyon lari planlaşdırılıb ki, bu da 2016-cı ilin göstəricilərindən 934,5 milyon lari çoxdur.

2017-ci ildə təxsisat 11 milyard 415 milyon lari təşkil edəcək və keçən ildəkindən 1,3 milyard lari çox olacaq.

Büdcənin xərclər hissəsi də 2016-cı illə müqayisədə 577 milyon lari artaraq 9 milyard 121 milyon lari təşkil edəcək.

2017-ci il üçün iqtisadi artım 4% proqnozlaşdırılır. 2016-cı ildə bu göstərici 3% olsa da, real iqtisadi artım 2,7% təşkil edib.

## GÜRCÜSTANDA MƏSAFƏDƏN TƏHSİL TƏTBİQ OLUNA BİLƏR

Gürcüstanda məsafədən təhsil alma tətbiq edilə bilər. Dəyişiklik ümumitəhsil haqqında qanun layihəsilə nəzərdə tutulur. Bu ideyanın təşəbbüskarı parlamentin elm və təhsil komitəsidir.

Qanun layihəsinə görə, distansiya təhsili ümumi təhsil almaq və ya Gürcüstanın ümumitəhsil müəssisələrində Milli tədris planında nəzərdə tutulmuş bir fəndən, fənlər qrupundan keçmək üçün təlim prosesini və ya onun bir hissəsini nəzərdə tutur.

Plana əsasən, tədris prosesinin keçirilməsi və təşkili məcburi olacaq, distansiya üzrə təhsilə görə, dərs prosesi bilgisayarla aparılacaq.

Məlumatda deyilir: “Məsafədən təhsilin tətbiqi Gürcüstanda alınan təhsilin poulyarlaşmasına yardım edəcək, Gürcüstan ümumitəhsil müəssisələrinin proqramı dünyanın istənilən nöqtəsində əlçatan olacaq”.

Parlamentin təhsil və elm komitəsinin sədri Mariyam Caşi vurğulayıb ki, bu, həm diaspor nümayəndələri üçün, həm də etnik azlıqlar üçün, xüsusilə də yüksək dağlıq regionların əhalisi üçün çox mühümdür.



## UŞAQ TƏRBİYƏSİNDƏ RASTLAŞDIĞIMIZ ACI GERÇƏKLƏR

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**"Ay dərdin alım, ay başına dönüm, bu gədə kimə oxşadı, kimə çəkdi? Heç bizim əslimizdə-nəslimizdə bu tutamada bir uşaq olmayıb". Belə əcaib sualı az qala hər gün bir neçə dəfə ayrı-ayrı məqamlarda eşitməli oluruq və ya səsləndirmək məcburiyyətində qalırıq, yəni birimiz deyirik, digərimiz də eşidirik. Sualın əcaibliyi orasındadır ki, biz uşaq deyərkən çox vaxt yaşı iyirmini-otuzu keçmiş biri haqqında danışırıq. Sualımızı əcaib edən ikinci tərəf isə ondan ibarətdir ki, biz bığlı-saqqallı övladımıza hələ də "gədə" deyə müraciət etməklə, gerçəkdən də onu "gədəliyə" və ya "gədələşməyə" sövq etmirikmi? Ona bu cür xitab etməklə o biçarəni gədəxislət bir varlığa çevirmirikmi?**

Qayıdıram sualın birinci tərəfinə: bu gədə kimə oxşadı – hissəsinə. Doğrudan da bu uşaq kimə oxşayıb, əcaba? Ələstü cavab da vermək olar: kimə oxşayacaq? – özümüzə. Alma budağından gen ha düşməyəcək? Elə məşhur mahnımızda deyildiyi kimi, alma almaya bənzər. Sözarası, ötəri də olsa onu da vurğulayım ki, əski dünyagörüşə görə, uşaq öz doğmalarından birinə, məsələn, ata-anasına, nənə-babasına, əmisinə, dayısına oxşayır və bizim əcaib sualımız da məhz o zaman söylənir. Biz uşağımızın tərbiyəsindən şikayət edirik, onun dikbaşlığından, saqqal saxlamasından, böyük-kiçik yerini bilməməsindən, toylarda içib dava salmasından, yetdiyinə yetib, yetmədiyinə bir daş atmasından rəncidə oluruq. Bunu heç birimiz inkar edə bilmərik. İndi məsələni bir qədər də açıq saxlayıb, uşaq tərbiyəsilə bağlı bir-iki məqamı da qabartmaq istəyirəm.

Burada mən müxtəlif tarixi dönəmlərdə ayrı-ayrı xalqların uşaq tərbiyəsinə dair bir-iki misal da gətirə bilərəm və ya ünlü pedaqoqlardan, filosoflardan bir-iki sitat gətirməklə yazımın dadını-duzunu bir az da artıra bilərəm. Amma mən bütün bunlardan imtina etmək məcburiyyətindəyəm. Nədən ki, bunları yazımın gözünə qatmaqla əsas məqsədimdən uzaq düşəcəyimi güman edirəm. Bəs çıxış yolu nədədir, bəs yuxarıda açıq saxladığımız məsələni çözmək üçün nə etməliyik? Haradan başlayıb, harada qurtarmalıyıq? Bəla burasındadır ki, bizim uşaq tərbiyə metodumuz, üsulumuz heç nəyə yaramır və tərbiyəmizin yarasızlığı bizi çətin bir müşgüllə üz-üzə qoyur. Və biz uşaqlarımıza doğru-düzgün bir tərbiyə verə bilmirik. Belə baxanda bizim xalq tərbiyə üsulunun zamanı keçib, dəyərini itirib və ya ən azından kəskin dəyişikliklərə möhtacdır.

Biz qızlarımızı azyaşlı ailə qurmağa itələyəndə anlamırıq ki, sabah onun dünyaya gətirəcəyi tifili tərbiyə də etmək lazımdır. Çox zaman dünyaya yenicə gəlmiş bu tifilin anasının, elə atasının da tərbiyəyə ehtiyacı olur. Bu zaman guya özlərinin dünyaya gətirdiklərinə gözəl tərbiyə vermiş sayaq nənələr-babalar dövriyyəyə dürtülüb yeni doğulan körpənin tərbiyəsi ilə, daha doğrusu taleyi ilə məşğul olmağa başlayırlar. Tez-tələsik nənə olmağa çalışan, baba çağırılmaq sevincini yaşamaq istəyən, nəvə oynatmaq arzularını gerçəkləşdirmək üçün oğul və qızlarını zorən evliliyə məcbur edən valideynlər fikirləşmirlər ki, dünyaya gələcək nəvələri müxtəlif patologiyalara malik ola bilərlər, adətən belə uşaqlar tərbiyə predmeti olmaq istəmirlər. Ərgənlik yaşına çatmamış bir ananın dünyaya gətirdiyi uşağı bəsləməsi üçün gərəkən ana südü çatışmazlığından həmin uşağın süni yemlə qidalandırılması lazımdır. Tibbi statistikaya görə, qəsdən müxtəlif cinayətlər törədənlərin əksəriyyəti ana südünün dadını bilməyənlərdir.

İşin tragikomik tərəfi orasındadır ki, biz qız uşaqlarını körpəcə yaşlarından gəlinciklə oynamağa vadar etməklə onlara erkən yaşda ana olmaq istəyini aşılayırıq. Atasının-anasının ibtidai təfəkkürlə, orta yüzilliklər düşüncəsilə toy, lap elə vay süfrələri açdığını görüb-götürən cocuqlarımız da öz böyükləri kimi hərəkət etməyin ən yaxşı və ən doğru yol olduğu düşüncəsinə qapılaraq, yeni il şənliklərində, son zəng tədbirlərində, müxtəlif toplantılarda yalnız yeməklər vasitəsilə özlərini ifadə etmək, özlərini təqdim etmək istəyirlər. Nədən ki, dünya gör-götür dünyasıdır. Atanın-ananın tökdüyünü kim yığışdırmalıdır? Əlbəttə ki, övladlar. Anasının 14-15 yaşında ailə qurduğunu bilən bir qız kimə oxşamalıdır? Atasının 30-40 il gəzib yorulduqdan sonra özündən az qala iki-üç dəfə kiçik, 14-15 yaşlı bir körpəciklə evləndiyini öyrənən uşaq kimə bənzəməlidir? Cavabı səsləndirsəm nə, səsləndirməsəm nə. Oğulun atanın kövşənini əkdiyini isə hər birimiz bilirik. Oğlan uşaqlarının kişi olduqlarını tez-tez qafalarına taqqıldatmaqla ata olmağın ləziz bir şey olduğunu onlara xatırladıb, yeniyetməlik dönəmindən onların qadağan olunmuş meyvələrdən – siqaret, spirtli içki, ən pis halda narkotik maddə, qumar kimi nəsnələrdən dadmalarına nədən oluruq. Bəzən öz körpəsini kişi qırığı kimi tərbiyə edən nadanın biri ona dalaşmağı, söyüşməyi də öyrədir ki, biz bunu da gizləyə bilmərik. Sadaladıqlarım yasaqları kişilik bəlgəsi kimi uşaqların gözünə soxan cəmiyyətimiz gələcəyimiz üçün gec açılan bombalar hazırladığının fərqində belə deyil. Bunun bumeranq effekti yaratmayacağına kim zəmanət verə bilər?

Ay keçir, gün dolanır və biz yenə də cavabını ovcumuzun içi kimi bildiyimiz əcaib "bu gədə kimə oxşadı" sualımızı mızıldanmağa davam edirik.

**...inanmıram ki, yuxarıda açıq saxladığım məsələ bizim bu gedişimizlə birdəfəlik həllini tapa, çözülüb bizim üzümüzü güldürə...**

## GÜRCÜSTANDA ONKOLOJİ XƏSTƏLİKLƏRİN İNNOVASİYA METODU İLƏ MÜALİCƏSİ MÜMKÜNDÜR

Akademik Todua adına klinikaya onkoloji xəstəliklərin müalicəsi üçün ən yeni avadanlıq – radiocərrahi EDGE sistemi gətirilib.

Tibbi avadanlıq klinikanın tikintisi səkkiz ay sonra başa çatacaq yeni korpusunda quraşdırılacaq.

Keçən il yaradılmış radiocərrahi EDGE sistemi şişləri və digər patologiyaları cərrahi müdaxilə və xəstəxana müalicəsinə gərək olmadan dəqiqliklə məhv edir. Bununla belə bu avadanlıq sağlam hüceyrələrə zərər vurmur.



Gürcüstanın baş naziri Georgi Kvirikaşvili və səhiyyə naziri David Sergeyenko dekabrın 7-də Todua klinikasına baş çəkmişlər.

Baş nazir vəd edib ki, vətəndaşların müalicələri innovasiya avadanlığından istifadə edilməklə ümumi sığorta proqramı çərçivəsində maliyyələşdiriləcək.

Kvirikaşvili vurğulayıb ki, Gürcüstan vətəndaşları xaricdə bahalı müalicə kursu keçmək üçün əmlakını satmalı və böyük borclar götürməli olurdu.

Baş nazir qeyd edib: "Bugün belə müalicə Gürcüstanda mümkündür. Bu proqramı dövlət maliyyələşdirir".

Hökumət başçısı klinikanın yaradıcısı və rəhbəri Fridon Toduanın Gürcüstan səhiyyəsinin inkişafındakı xidmətlərini vurğulayıb.

"Akademik Fridon Todua bizim hamımızın fəxr etməli olduğumuz adamdır. O, 1990-cı ildə Rusiyadan Gürcüstana gələrək, bu klinikaya 34 milyon avro sərmayə qoydu. Biz bu işi salamlayırıq. Bəllidir ki, evdə adamı divarlar da müalicə edir" – Kvirikaşvili deyib.

## "MARNEULİ-500" YARIMSTANSİYASININ İNŞASI BAŞA ÇATDI

Hökumət administrasiyasının mətbuat xidmətinin məlumatına görə, yeni "Marneuli-500" yarımstansiyasının tikintisi başa çatıb.

660 MVA gücündə yeni yarımstansiya "Gürcüstan dövlət elekrik sistemi" şirkətinin Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Regional elektrik verilməsinin yaxşılaşdırılması" layihəsinin bir hissəsidir. Türk şirkətinin həyata keçirdiyi tikintinin dəyəri 20 milyon dollar təşkil edir.

Yarımstansiyanın tikintisinin başa çatması münasibətilə təşkil olunmuş mərasimdə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili və baş nazirin müavini, Gürcüstanın energetika naziri Kaxa Kaladze də iştirak edib.

Mərasimdə çıxış edən baş nazirin sözlərinə görə, yarımstansiyanın tikintisi Gürcüstanın enerji müstəqilliyinə doğru atılmış daha bir addımdır.

Hökumət başçısı ümumilikdə ölkədə elektrik verilməsinin inkişafına 735 milyon avro məbləğində sərmayə qoyulmasının nəzərdə tutulduğunu bildirib.

Kvirikaşvili layihənin həyata keçirilməsini dəstəkləyən Asiya İnkişaf Bankının Gürcüstanın vacib tərəfdaşlarından biri olduğunu vurğulamışdır.

Hökumət administrasiyasında bildiriblər ki, layihənin həyata keçirilməsi nəticəsində Şərqi Gürcüstanın, xüsusilə də Tbilisinin və Kvemo Kartilinin elektrik enerjisi ilə təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşacaq.

## YANVARIN 1-DƏN SİQARET AKSİZLƏRİ 1,5 DƏFƏ, BENZİN AKSİZLƏRİ 2 DƏFƏ BAHALANACAQ

2017-ci il yanvarın 1-dən Gürcüstanda siqaret aksizlərini indiki 1,1 laridən 1,7 lariyədək, yəni 1,5 dəfədən çox artırmaq planlaşdırılır. Bu barədə baş nazirin müavini, maliyyə naziri Dmitri Kumsişvili məlumat verib.

"Bu dövlət büdcəsinin gəlirlərini əhəmiyyətli dərəcədə artıracaq. Avtomobil idxalına görə də aksiz dərəcələri artırılacaq ki, bu büdcədə əlavə 45 milyon lari toplamağa imkan verəcək" – Kumsişvili deyib.

Bir qədər əvvəl məlumat verilmişdi ki, 2017-ci il yanvarın 1-dən tütün məmulatları, neft məhsulları, avtomobil idxalı və oyun biznesinin aksiz dərəcələrinin əhəmiyyətli dərəcədə artırılması ölkədə yaranmış maliyyə-iqtisadi vəziyyəti sabitləşdirmək üçün yeni hökumətin işlədiyi tədbirlər kompleksində nəzərdə tutulub.

D. Kumsişvilinin sözlərinə görə, birinci halda tütün məmulatlarının istifadəsinin 10%, ölkəyə avtomobil gətirilməsinin isə 25% azalacağı gözlənilir.

Neft məhsullarına gəlincə, 1 ton benzinin aksiz dərəcəsinin 250 laridən 500 lariyədək, dizel yanacağının aksiz vergisinin 150 laridən 400 lariyədək, hər min kubmetr avtomobil üçün qaz yanacağının aksiz dərəcəsinin 80 laridən 200 lariyədək artırılması nəzərdə tutulur. Maliyyə naziri bununla istehlakın 10% azalacağı qənaətindədir.

Kazino, totalizator və digər oyun müəssisələrinə 5%-lik vergi əvəzinə 10%-lik vergi qoyulacaq ki, bu da büdcəyə 30 milyon lari əlavə vəsaitin daxil olması deməkdir. Kumsişvili hər oyun masasına əlavə 30% vergi qoyulacağını və büdcəyə əlavə 20 milyon lari vəsaitin daxil ediləcəyini bildirib.

## GÜRCÜSTANDA AVTOMOBİL SAHİBLƏRİ ƏMLAK VERGİSİ ÖDƏYƏCƏKLƏR

2017-ci ildən Gürcüstanda avtomaşın sahibliyinə görə əmlak vergisi ödənişi məcburi olacaq. Ölkənin Vergi məcəlləsinin 201, 202 və 205-ci maddələrinə düzəlişlər ediləcək. Vergi illik gəliri 40 min laridən yüksək olan ailələrə şamil ediləcək.

İllik vergi avtomobillərin yaşı üzrə fərqləndiriləcək. Yaşı bir ildən aşağı olan maşınlara görə 500 lari ödəmək lazım gələcək. 1 yaşdan 5 yaşadək maşınların sahibləri 240 lari vergi ödəməli olacaqlar. Yaşı 5 ildən 10 ilədək olan maşınlar üçün 120 lari, 10 ildən yuxarı maşınlar üçünsə 60 lari vergi ödəniləcək.

## GÜRCÜSTANDA PULLU AVTOMOBİL YOLLARI MEYDANA ÇIXA BİLƏR

Gürcüstanın iqtisadiyyat nazirliyi ölkədə pullu avtomobil yollarının işə salınması layiyihəsi üzərində işləyir. Bu barədə nazir müavini David Xutsişvili məlumat verib.



Onun sözlərinə görə, təəssüf ki, bu gün Gürcüstanda bu cür infrastrukturlar mövcud deyil, buna görə də artıq bu məsələ ilə bağlı işə başlanılıb və Regional inkişaf nazirliyi beynəlxalq ekspertlərlə birlikdə onun üzərində işləyir.

Nazir müavininin sözlərinə görə, sürücülərin alternativ pulsuz yollardan, arzuladıqda isə pullu yollardan istifadə etmək imkanları olmalıdır .

# "TOYA" DÜŞMÜŞ ADƏTLƏR

**Düzünü desəm bu yazımın mövzusunu çox axtarmadım. Bu dəfə yenə fikrim sizə cəmiyətimizin çatışmayan cəhətlərindən birini şərh etməkdir.**

Mənə elə gəlir ki, mövzumla əlaqəsi olmayan oxucu olmayacaq. Çünki, düşünürəm ki, hər birimizin evində ən azı bir dəfə toy-düyün dəsgahı qurulmuşdur. Bəli, əminəm ki, bu, məndə , eləcə də sizdə müsbət emosiyalar, yaxşı təəssüratlar yaratmışdır. Amma, gəlin bu möhtəşəm, illərcə yadımızda qalan günün bizdən aldıqlarına da baxaq.

Yer üzündə xalqları bir-birindən ayıran atributlardan biri də adət-ənənələrdir. Bir xalqın ən böyük mənəvi dəyəri əlbəttə ki, illərdir qoruyub saxladığı adətləridir.



Buraya qədər hər şey gözəldir. Əsl "gəlhagəl" bundan sonra başlayır.

Son zamanlar bizdə adət-ənənə maddiyatın rəmzinə çevrilib. Maraqlısı da odur ki, kimin maddi imkanı yaxşıdırsa, cah-cəlallı toy mərasimini yalnız o qurmur. Belə deyək, qonşu qonşuya baxır, canını oda yaxır. Əsas hissəyə keçməmişdən qabaq onu deyim ki, fikrim təbəqə fərqi yaratmaq, ya da adət-ənənələrin üsündən xətt çəkmək deyil, əksinə daha uyğun şəkildə, onları olduğu kimi gələcək nəsillərə ötürməyin düzgünlüyünü bildirməkdir. Yəni, zənnimcə heç bir ağlı başında dinc duran adam " camaat 40 gün, 40 gecə toy edir, halal olsun ona" – deməz.

Günümüzdə bir qədər formasını dəyişmiş də olsa, həqiqətən çox maraqlı adət-ənənələrimiz var imiş: nişan, xınayaxdı, toy...

Bizim olduğu kimi anlamadığımız bir mövzu da elə bu xınayaxdıdır. Əslində xınayaxdıda qızlar bir araya gəlib gəlin olacaq qızın ata evində son gününü qeyd edərlər. Amma biz bunu bir qədər bəzəmişik. Belə ki, qızın ata evində son gününü qeyd etməyə kənd axışıb gəlir. Çünki əlimizdə qalan beş-üç manatı səxavətlə illərdir həsrətini çəkdiyimiz günün gözəlliyinə qurban veririk ki, camaat bizə xəsis kimi baxmasın. Əgər ətrafımızdakı cəmiyyət bundan ibarətdirsə, düşünürəm ki, onun fikirlərinin bizə heç bir mövzuda xeyri dəyməz. Əgər yalnız bəzəkdüzəyə verilən pulla on nəfər uşağın qarnı doya bilirsə, adət-ənənə adı ilə bəzədiyimiz nələrsə mənə böyük bir düşüncəsizlik kimi gəlir.

Bir şeyi dəqiq bilirəm ki, gəlini qızılla bəzəmək üçün qoyma-qaçdıya düşənlər də halından məmnun olmadan bunu məcburiyətdən edirlər. Belə olmasa, bu hədiyyələri ona toy günü hamının gözü önündə taxmaq məsuliyəti hiss etməzlər. Düşünürəm ki, camaat arasında qır-qızıl mübarizəsini adət-ənənəyə aid edənlər də çoxdur, imkanı olmayanlar da borc-xərc bir yerdən tapıb mütləq qalmaqal yaradırlar. Maraqlısı da odur ki, bu vəziyyətdən heç kəs razı deyil. Yəqin hansısa daxili qüvvəmi, ya nəsə onlarda buna məcburiyət yaradır.

Bundan əlavə , mənə məna baxımından yoxluq kimi görünən bir şey daha var. Əvvələr qız evinin, ya oğlan evinin yaxın saydığı ailə toy günü şax bəzəyər, gəlinə-bəyə hədiyyə verərlərdi. İndi daha şərait əl verməsə belə bir gün qabağa qız evi və ya oğlan evi özü xonça hazırlayıb qonşuya qoyur, toy günü də hay-harayla gedib gətirir. Əgər bunu öz xeyrimizə belə dəyişiriksə, ümumiyyətlə etməməkdən niyə çəkinirik?

Bir çox xalqlardan başqa sahələrdə geri qalsaq da, toy həngaməsində heç bir xalqdan geri qalmırıq. Əvvəllər 200-300 nəfərlik toy məclisi qururduqsa, indi bu rəqəm 700-800-ə yaxınlaşıb.

Mən gürcü toyunda olmamışam, amma danışılanlardan eşitdiyimə görə klassik gürcü toyunda 100-150 nəfərlik məclis qurulur. Təbiidir və başa düşürəm ki, bir ailənin 100-150 nəfər yaxın dostu, tanışı ola bilər.

Amma, zənnimcə, bu 800 nəfərin 90 faizi üçün toyu olanları təbrik etmək heç maraqlı da deyil. Həm də 700 nəfərlik məclisi yola salmaq böyük maddi vəsait tələb edir. Amma yox, hər kəs öz hesabını ödəyib qalxır. Bu da adət-ənənənin bir parçasıdır. Amma onu da deyim ki, bu "nəmər" termini hədiyyənin günümüzdə "deformasiyaya" uğramış formasıdır.

Keçək bəy-gəlin stoluna. Təxminən bir-iki il əvvəl elə düşünürdüm ki, bəylə gəlin bu xərci ciblərindən verib, camaatı toylarına çağırıb, indi də fərəhlə otururlar. Amma yeni-yeni xəbərim olur ki, bu təm-tərağın bir hissəsinə belə (fərqi yoxdur ya bəy, ya gəlin) qatqısı olmayanlar var. Hətta bir-iki gün bundan əvvəl gəlin paltarının bir günlük kirayə pulunun 500 laridən başlaması bu mövzunu yazmaq üçün məndə xüsusi maraq oyatdı. Daha onun saç-başını, cer-cehizini də demirəm.

**Bəlkə bir çox məsələdə səhv düşünürəm, amma, məncə, cəmiyyətin fikri üçün hər şeyimizi fəda etmək məcburiyyətində deyilik. Zənnimcə, əgər fikrimizdəki yalnız adət-ənənələrimizi yaşatmaqdırsa,onda yalnız bunu etməliyik.**

Anaxanım VÜQAR

## GÜRCÜSTANDA ETNİK AZLIQLARLA BAĞLI QANUN HAZIRLANIR

"Gürcüstanda yaşayan azərbaycanlılar bütün sahələr üzrə təhsil ala bilərlər. Onlar istədikləri sahəni, peşəni seçməkdə azaddırlar".

AzVision.az xəbər verir ki, bunu Gürcüstanda Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üzrə Milli Mərkəzin direktoru, Gürcüstanın keçmiş elm və təhsil naziri Tamar Sanikidze deyib. O, qeyd edib ki, Gürcüstanda ali təhsil almaq üçün "4+1" formatında xüsusi proqramlar mövcuddur.

"Bu, o deməkdir ki, azərbaycanlılar da daxil olmaqla etnik azlıqlar dövlət imtahanı verməklə ali məktəblərdə təhsil ala bilirlər. Bu halda onlar bir il ərzində intensiv olaraq gürcü dili kurslarında iştirak edə və bundan sonra dövlət hesabına Gürcüstan ali məktəblərində təhsil ala bilərlər. Artıq Gürcüstanda bu proqram üzrə məzunlar var. Onlar yaxşı təhsil alıblar və həm Azərbaycan, həm də gürcü dillərində sərbəst şəkildə danışırlar".

T.Sanikidzenin sözlərinə görə, hazırda Gürcüstanda etnik azlıqlar üçün yeni qanun layihəsi hazırlanır:

"Biz şagirdlərin nəticələrini nəzərdən keçirdikdə yeni sistemə ehtiyac olduğunu gördük. Ümumiyyətlə, Gürcüstan çoxmillətli ölkədir. Gürcülərin bu millətlərlə qədim dövrlərdən yaxşı əlaqələri var. Təhsil baxımından danışsaq, azərbaycanlılar da daxil olmaqla etnik xalqların öz dillərində təhsil almaq hüququ var. Bu, Gürcüstan Konstitusiyasında öz əksini tapıb və biz bunu tamamilə dəstəkləyirik. Etnik xalqlar öz dilləri ilə yanaşı, həm də gürcü dilində təhsil alırlar. Bu, həm dövlətin marağındadır, həm də həmin azlıqların cəmiyyətiə inteqrasiyası baxımından olduqca önəmlidir".

# ŞARLOTTA
## *(təzadlar)*

**Təbii ki, "Qarı və pişik" adlı xalq nağılımızı biləndə ədəbiyyat üzrə Nobel mükafatı laureatı Norveçli Siqrid Unsetin əsərləri ilə tanış deyildim. Və "alaboyun" pişiyin nağıldakı sözlərini sinif yoldaşım Elmanla birlikdə sidq-ürəkdən mən də əzbərləyirdim:**

Yük altı yaylağımdır,
Yük üstü qışlağımdır.
Kürsü üstə duraram,
Bığlarımı buraram.

...Siqrid Unsetin "Qazmada xoruzla pişik yaşayırdı" adlı hekayəsində belə bir epizod var: "Bir dəfə kral baş nazirlə gəzməyə çıxmalı oldu. Onlar xoruzla pişiyin yaşadığı torpaq qazmanın yanından keçirdilər.

– Bir zavallılara bax, – kral dilləndi, – bu qədər miskin torpaq qazmada yaşayırlar. Oh, baş nazir, bir ora get, orda yaşayanlara kralın adından min kron ver" (tərcümə N.Əbdülrəhmanlınındır).

Əlbəttə, kralın da (prezident də ola bilər), baş nazirin də arada-sırada yoxsul daxmalarının yanından keçmələri, hətta daxmanın içərisinə girdilər-girmədilər belə, iman və insaf dolu hadisələrdəndir. Amma krala və baş nazirə aid olanlar hərdən-birdən cəngli-cidallı və az-az da arazbarı moizəxan məsələlər olduğundan, birbaşa pişiyin adına keçirəm: çünki Mirzə Cəfər bəyin (Allah Mirzə Cəlilə qəni-qəni rəhmət eləsin) irrasional iddialarına görə, qazmada xoruzla birlikdə yaşayan həmin pişiyin adı "Şarlotta" olub. Yenə də Mirzə Cəfər bəyə görə, bu, həmin papaqaldıqaç pişikdir ki, günlərin bir günü mifoloji-sehrli və sər-salamət şəkildə o qədər uzaqlardan gəlib Süsən-Sünbülə çıxıb. Şarlottanın gəlişinə qədər Süsən-Sünbüldə bir kimsənin uğuruna pişik çıxardısa, adam dərhal uğurdan geri qayıdardı: xurafata elə inanardı!

Bəzi çoxbilmişlər bunu belə izah edirdilər ki, bəs deməzsənmi, yüksəkdən atılarkən bütün pişiklər yerə həmişə ayaqları üstə düşdükləri halda, Şarlotta nədənsə arxası üstə düşür...

...Ümumiyyətlə, mən pişiklərə (olsun itlər, ya da inəklər) yaxşı və məkrsiz adlar verilməsinin tərəfdarıyam. Amma bir də görürsən Mirzə Halaypozan pişiyinə – əlbəttə, kinlilik və düşmənçilik məqsədilə – Mirzə Tüpdağıdanın adını qoyur, Mirzə Virus da Mirzə Mikrobun: bu da əmanətdarlıqdan və bəsirətdən qıraq iş deyilmi?

Bu günlərdə "Lenta.ru" xəbər agentliyi "Baltik radiosu"na istinadən yaydı ki, siçovullarla mübarizə aparmaq məqsədilə Ermitajda daimi "qeydiyyat"da olan pişiyə ABŞ-ın yeni prezidentinin şərəfinə "Tramp" adını veriblər. Zalım ermitajlılar, dilucusa demirlər, işdi-şayəd, yeni prezident inciyə bilər. Pəsinib eləmirlər, vallah!

...Burası da var ki, pişiklərə pişxidmət eləyən məşhurlar, hətta həyatını pişiklərə həsr eləyənlər də az olmayıb: Bayrondan Pikassoya qədər! Amma sözümün toz-tozanaq təkrarına bir də qayıdıram: misilləmə misal üçün, mən Heminqueyin öz pişiyinə "Kuba", Fisceraldın da öz pişiyinə "Şopen" adlarını verməlМərini qınayıram. Elə Mirzə Halaypozanın öz pişiyinə Mirzə Tüpdağıdanın adını verməyini də! Amma Vahid Vəhdət Dünyasında nələr olmur? Bir də gördün qan düşməninin yaşadığı şəhərin "İsgəndər" raketi ilə vurulduğu səbəbindən yaralı xoruzuna "İsgəndər" adını verən Salamiyyə ərəbinin dəvəsi ölən qonşusu da danasına mənim adımı verdi: çünki qulağına çatıb ki, yeni "İbrahim" qırıcısı da hazırlanır.

Heminqueyin "Kuba" adlı pişiyi demiş, bilirsənmi, yadıma nə düşdü? Adının pişiyə qoyulduğu, pulunu bolqar baltası kəsməyən Tramp bu yaxınlarda Kuba lideri Fidel Kastronu "zalım diktator" adlandırdı. Əgər Əyriqardan çox-çox uzaq olan Madrid tərəflərdə yazılanlara inansaq, sən demə, Fidel Kastroya həyatı boyu 600-dən artıq sui-qəsd cəhdi olubmuş! Hətta Mərkəzi Kəşfiyyat İdarəsinin hazırladığı və məxfi adı nədənsə "Şarlotta" olan sui-qəsd planının biri də Fidelin... məşhur saqqalını dibindən yox eləmək imiş! Bu yerdə Mirzə Cəfər bəy də kinayə və istehza dolu demirdimi: Pişiyimiz oğlan doğub!

P.S.

Şarlotta (fr. Charlotte) – Şarl (Çarlz), ya da Karl kişi adının qadın adı variantıdır. Hansı minvalla ki, Karl müxtəlif dillərin fonetik normasına adaptasiya olub, az qala həmin oxrantılı oxşar minvalla ədəbiyyat üzrə Nobel mükafatı laureatı Siqrid Unsetin pişiyi də (əlbəttə, yenə də Mirzə Cəfər bəyə görə) Süsən-Sünbül tərəflərə adaptasiya oldu. Onun buralara gəlib çıxma səbəbini vaxtilə Avropada pişiklərin uğursuz hesab olunmasında görənlər də var. Yadında qalmış olar: bir zamanlar Avropada pişik bəsləyən xeyli qoca qadın pişiyi ilə birlikdə öldürülmüşdü.

**...Az qala unutmuşdum: "Şarlotta" həm də asteroid (Marsla Yupiterin orbitləri arasında dövr edən kiçik planet) adıdır. Bəzi elmi mülahizələrə görə, bu asteroidin Yerlə toqquşmaq ehtimalı sıfıra bərabərdir. Allah eləməsin, bu ehtimal heç olmasa birə bərabər olsaydı, Mirzə Cəfər bəy dərhal deyərdi: "Məgər pişik balasını istədiyindən yemirmi"?**

İBRAHİMXƏLİL



## AVROPA İTTİFAQI VƏ TÜRKİYƏ ARASINDA YAŞANAN SON OLAYLARA ÖTƏRİ BAXIŞ

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Noyabrın 24-də Avropa İttifaqının qanunverici orqanı olan Avropa Parlamenti Türkiyənin bu İttifaqa üzv olunması üzrə başladılmış danışıqlar prosesini dayandırmaq barədə qərar qəbul etdi. Bu qərarın qəbul edilməsilə onsuz da dalana dirənmiş Türkiyə ilə danışıqlar prosesi bir qədər də zərər görəcəkdir. Səbəb isə bu ölkə hökumətinin dövlət çevrilişinə cəhddə şübhəli bilinən şəxslərə qarşı sərt davranışı və söz azadlığına qoyulan məhtudiyyətlər göstərilir.**

Əslində, Türkiyənin əleyhinə Avropa İttifaqının kəskin davranışlarının arxasında başqa gizli məsələlər durur. İttifaqın aparıcı dövlətləri güclü Türkiyəni Ərdoğan iqtidarı ilə bu qurumda görmək istəmirlər. Digər tərəfdən də artan Türkiyə-Rusiya münasibətləri fonunda Ankaranı cəzalandırmaq niyyətindədirlər. Qəbul edilmiş qətnamə dolayı yollarla Ankaraya xəbərdarlıq mesajıdır və Avropa İttifaınn zirvə görüşü öncəsi Türkiyənin "nəbz"ni yoxlamaq məqsədi daşıyır. Sənəddə həmçinin Türkiyə ilə Avropa İttifaqının sıx münasibətlərinin saxlanmasının vacibliyinin vurğulanması isə gülünclükdən başqa bir şey deyil. Avropa parlamentinin bu qətnaməsi hüquqi qüvvəyə malik olmayıb, yalnız tövsiyə xarakteri daşısa belə, onu Ankaraya qarşı tətbiq ediləcək çoxsaylı təzyiqlərin "müjdəsi" kimi dəyərləndirmək olar. İttifaqın nümayəndəli orqanı quruma daxil olan milli hökümətləri və Avropa Komissiyasını da qətnamənin reallaşmasına dəstək verməyə çağırıblar. Bu arada, Avstriya bir qədər də qabağa getmiş, bu ölkənin parlamenti müxalifətə qarşı istifadə etmə ehtimalını bəhanə gətirərək Türkiyəyə silah satışının qadağan edilməsinə dair təşəbbüslə çıxış edib. Avstriya ərazisində hazırki türk iqtidarını dəstək məqsədi ilə keçirilən kütləvi toplantılara Türkiyə bayrağının gətirilməsi də yasaqlanıb.

Türkiyə ilə danışıqlar prosesinin əsas müqəddaratı 15-16 dekabrda Avropa İttifaqı ölkələri liderlərinin Brüsseldə keçiriləcək növbəti sammitində bəlli olacaq. Lakin, zirvə görüşündə Türkiyəyə qarşı neqativ qərarın qəbul edilməsi proqnozlaşdırılmır. Çünki, əks təqdirdə Avropa da böyük problemlərlə üzləşə bilər. Ona görə də danışıqlar prosesinin dondurulmasına dair müzakirələrdən əvvəl Avropa İttifaqının xarici və təhlükəsizlik məsələlər üzrə Ali nümayəndəsi Federika Moqerini parlamentariləri ehtiyatlı olmağa dəvət etmişdir. Rəsmi Ankara isə hələ hadisələrin gedişatını səbrlə izləməkdədir. Çünki, Ankara hələ də qaçqınların Türkiyədə yerləşdirilməsi müqabilində Avropa İttifaqının adıgedən qurum ölkələri ilə vizasız rejimə keçid vədinin yerinə yetirilməsinə ümid etməkdədir.

Avropa liderlərinin Brüssel sammitinin nəticəsindən asılı olaraq türk hökumətinin atacağı adekvat addım maraq doğurmaqdadır. Çünki, Türkiyənin də öz növbəsində Avropaya tutarlı cavab reaksiyası mövcuddur. İlk öncə, Ankara Suriya qaçqınlarının Türkiyədə yerləşdirilməsi planından imtina edəcək və bu da Avropaya əlavə baş ağrısı olacaqdır. Artıq bu barədə prezident Ərdoğan rəsmi açıqlama da verib. Digər tərəfdən Türkiyə xarici siyasətdə qəti qərar qəbul edərək Qərb dünyasının rəqibi olan Rusiya, eləcə də Çinin təmsil olunduğu Şanxay Əməkdaşlıq Təşkilatı (Şanxay beşliyi) ilə yaxınlaşmağa sürət verəcəkdir. Bu isə dünyanın geosiyasi xəritəsinin yenidə cızılması anlamına gəlir. Qərb dünyasının Türkiyəni NATO blokundan xaric eməklə cəzalandıra bilməsi ehtimalına isə ən dolğun arqument Şanxay beşliyinin hərbi blok yox, iqtisadi təşkilat olmasıdır.

**Bu gün Türkiyənin Avropa İttifaqında varlığının müqəddaratı İttifaqın Avstriya kimi siyasi çəkisi "yüngül" olan dövlətindən yox, Fransa və Almaniyanın Ankara ilə məcburi olaraq razılaşmasından aslıdır. Təssüff ki, hadisələrin bu cür gedişi yaxın gələcəkdə "Köhnə Qitə"nin Türkiyə ilə siyasi vektorunda müsbət dəyişikliklər olacağını arxa plana atır.**

## TÜRKİYƏ Aİ-YƏ DAXİL OLMAQ MƏSƏLƏSİNƏ DAİR REFERENDUM KEÇİRƏ BİLƏR

Türkiyə hakimiyyəti Avropa İttifaqına daxil olmaq məsələsinə dair ümumxalq səsverməsi keçirilməsi imkanlarını nəzərdən keçirir. Bu barədə noyabrın 13-də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə bildirib.

Ərdoğan bəyan edib: "Avropa İttifaqı sadəcə istəyir ki, biz danışıqlar prosesindən çəkiləк. Əgər onlar bizi istəmirlərsə, ev sahibi kimi bunu desinlər. Gərəkli qərarı qəbul etsinlər. Bizə necə münasibət bəsləmələrinə biz əbədi olaraq dözə bilmərik".

Türk tərəfi Brüssellə münasibətlərdən narazıdır, Ankarada belə hesab edirlər ki, o, Türkiyənin Aİ-yə qoşulmasına mane olur. Türkiyə Avropa İttifaqına daxil olmaq istəyini hələ 53 il bundan əvvəl bildirmişdi. Türkiyə prezidentinin sözlərinə görə, Avropa İttifaqı readmissiya haqqında vədlərinə əməl etməyib.

"Qərb Türkiyə üçün yaxşı heç nə etməyib və ölkə öz problemlərini müstəqil şəkildə həll edəcək" – Türkiyə lideri bir qədər əvvəl bəyan etmişdi.

## MİRZİYƏYEV ÖZBƏKİSTAN PREZİDENTİNİN SƏLAHİYYƏTLƏRİNİN İCRASINA BAŞLADI

Yeni seçilmiş Özbəkistan prezidenti Şövkət Mirziyəyev ölkə parlamentində palataların birgə iclasında and içib.



Dekabrın 4-də Özbəkistanda prezident seçkiləri keçirilib. MSK-nın məlumatına görə, Özbəkistanın Liberal-demokratik partiyasından namizədliyi irəli sürülən Mirziyəyev 88,61% səs toplayıb.

Mərkəzi Seçki Komissiyasının sədri Mirzə-Uluqbəy Abdusalomov Mirziyəyevə Özbəkistanın prezident vəsiqəsini təqdim edib.

Daha sonra yeni seçilmiş dövlət başçısı əlini Quran və Konstitusiyaya basaraq and içmiş "Respublika Konstitusiyasına və qanunlarına ciddi riayət edəcəyini, vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəyini, Özbəkistan Respublikası prezidentinin öhdəliklərini yerinə yetirəcəyini" vəd edib.

Xatırladaq ki, 1990-cı ildən respublikaya rəhbərlik edən İslam Kərimov sentyabrın 2-də 78 yaşında ürək çatışmazığından vəfat etmişdi. Parlamentin qərarı ilə yeni dövlət başçısı seçilənə qədər onun səlahiyyətləri baş nazir Şövkət Mirziyəyevə həvalə edilmişdi.

## ABŞ-IN 2017-Cİ İL HƏRBİ BÜDCƏSİNDƏ RUSİYA İLƏ HƏRBİ ƏMƏKDAŞLIQ QADAĞAN OLUNUR

ABŞ Konqresinin nümayəndələr palatasının təsdiq etdiyi 2017-ci hərbi büdcəsində Rusiya Federasiyası ilə hərbi əməkdaşlıq qadağan olunur.

Sənədə 375 konqresmen tərəfdar çıxıb. Bu sənədə görə, Vaşinqton və Moskva arasında hərbi əməkdaşlığa vəsait ayırılması qadağan edilir. Bu məhdudiyyət Moskvanın "Ukraynanın, habelə NATO-ya üzv dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə təhlükə yaradan işğalını və təcəvüzkar hərəkətlərini dayandırmasına"dək davam edəcək.

Həmçinin Krımı Rusiyanın bir hissəsi hesab edən istənilən fəaliyyətin maliyyələşdirilməsi də qadağan olunur.

Bundan əlavə, qanun layihəsi "Rusiyanın dayandırılması" üçün 4,3 milyard dollar ayrılmasını da nəzərdə tutur. Bu məbləğ "siyasi, iqtisadi və ictimai diplomatiyaya", eləcə də ABŞ-ın NATO çərçivəsində müttəfiqlərinə və Avropa və Asiyadakı tərəfdaşlarına hərbi yardım məqsədilə ayırılır.

## HİNDİSTANIN BAŞ NAZİRİ İLİN ADAMI OLDU



Amerikanın "Taym" jurnalı Hindistanın Baş naziri Narendra Modini ilin adamı seçib.

Axar.az xəbər verir ki, jurnalın oxucularının 18%-i Modiyə səs veriblər. Onun ən yaxın rəqibləri Barak Obama, Donald Tramp, Culian Assanc olub. Onların hər biri cəmi 7% səs toplaya bilib. Rusiya Prezidenti Vladimir Putin oxucuların 6%-nin səsini almaqla reytinqin beşincisi olub. ABŞ-ın xanım siyasətçisi Hillari Klinton oxucuların 4%-nin, Facebookun qurucusu Mark Zukerberq isə 2%-nin səsini qazanıb.

## 2016-CI İLDƏ DÜNYA ÖLKƏLƏRİ ÜZRƏ ORTA AYLIQ ƏMƏKHAQQI NƏ QƏDƏRDİR?

2016-cı ildə dünya ölkələri üzrə orta aylıq əməkhaqqının miqdarı nə qədər olub? Statistikaya düşmüş 71 ölkə arasında hər bir işləyənə 3722 dollar aylıq gəlirlə Lüksemburq liderdir. Statistikanın ikinci pilləsini 3654 dollarlıq göstərici ilə digər Avropa ölkəsi Norveç, üçüncü pilləsini isə 3263 dollarlıq göstərici ilə dünya nəhəngi Amerika Birləşmiş Ştatları tutur. Reytinqin ilk beşliyində 3122 dollarla Avstriya dördüncü, 2852 dollarla Cənubi Koreya beşincidir. Sonuncu – 71-ci pillədə işçilərinin cəmi 112 dollar orta aylıq əməkhaqqı aldığı Suriya yerləşir.

Rusiya reytinqdə təqdim olunan 71 ölkə arasında 570 dollarlıq göstərici ilə 51-ci yerlə kifayətlənməli olub.

Bu reytinqdə işləyənlərinin 430 dollarlıq gəliri ilə Gürcüstan 55-ci pillədə qərarlaşıb. Gürcüstanın yaxın qonşusu olan Türkiyə regionda ən yaxşı göstəriciyə malikdir. Belə ki, Türkiyə 1067 dollarlıq orta aylıq əməkhaqqı ilə reytinqin 35-cisidir. Ölkəmizin digər qonşusu Azərbaycanın reytinqdə yeri 303 dollarlıq göstərici ilə 63-cüdür.

Reytinqin son beşliyində orta aylıq əməkhaqqı göstəricisinə görə Hindistan (244 dollar, 67-ci yer), Qırğızıstan (235 dollar, 68-ci yer), Pakistan (230 dollar, 69-cu yer), Tacikistan (138 dollar, 70-ci yer) müvafiq olaraq Suriyadan əvvəldədirlər.

## GÜRCÜSTAN PARLAMENTİ KONSTİTUSİYA KOMİSSİYASINI TƏSDİQLƏYİB

Gürcüstan parlamenti ölkənin fəaliyyətdə olan qanunverici orqanının sədri İrakli Kobaxidzenin başçılığı ilə Dövlət Konstitusiya komissiyasının yaradılması haqqında qətnamə layihəsini qəbul edib.

Komissiyanın yaradılmasına 150 deputatdan 96-sı səs verib. Prosedur qaydalarına görə, qətnamənin qəbulundan sonra komissiya beş gün ərzində komplektləşdiriləcək.

Parlament seçkilərinin nəticələrinə görə, 150 deputat yerindən 115-ə sahib olan "Gürcü arzusu" ölkə Konstitusiyasını dəyişmək hüququ qazanıb.

"Biz Konstitusiyanı təkmilləşdirmək və hamıya göstərmək istəyirik ki, mövcud şəkildə Konstitusiya çoxluğunun heç bir təhlükəsi yoxdur və mövcud Konstitusiya çoxluğunun müsbət siyasi iradəyə uyğun fəaliyyət göstərməsini sübut etmək istəyirik" – Kobaxidze bildirib.

Komissiyaya çoxluq, müxalifət, QHT, hökumət nümayəndələri, Konstitusiya və Ali Məhkəmənin sədrləri və b. daxil olacaq.

Parlamentin sədri Konstitusiya Komissiyasında iştirak etməkdən imtina etdiklərini bildirən prezident administrasiyasının nümayəndələrinin bu fikirdən daşınacaqlarına ümid etdiyini bildirib.

Kobaxidze Gürcüstan parlamentinin Venesiya komissiyasının mənfi qiymətini alacaq normalar qəbul etməyəcəyini vurğulayıb.

Konstitusiya komissiyası 2016-cı ilin sonunadək işə başlayacaq, Konstitusiya düzəlişlərinin son layihəsini aprelin 30-dək hazırlayacaq və bundan sonra ümumi müzakirələr və parlament dinləmələri başlayacaq.

## 2018-Cİ İLDƏN QİÇS-İN MÜALİCƏSİ DÖVLƏT HESABINA OLACAQ




2018-ci ildən etibarən QİÇS-ə yoluxmuş Gürcüstan vətəndaşlarının müalicəsini dövlət maliyyələşdirəcək. Bu barədə əmək, səhiyyə və sosial müdafiə nazirinin müavini Valeri Kvarasxeliya bəyan edib. Hal-hazırda xəstələrin müalicəsini QİÇS, vərəm və qızdırma ilə mübarizə üzrə Qlobal Fond həyata keçirir. Təşkilat 2002-ci ildə BMT Baş Assableyasının Xüsusi sessiyasının qərarı ilə yaradılıb.

Kvarasxeliya dekabrın 1-də Beynəlxalq QİÇS-lə mübarizə gününə həsr olunmuş tədbirdə 2018-ci ildən QİÇS-in müalicəsinin dövlət hesabına olacağını vurğulayıb.

Tədbirdə hər gün Avropada 400 yeni QİÇS-ə yoluxma halının qeydə alındığı bildirilib. Şərqi Avropa ölkələrində vəziyyət daha ağırdır.

Mütəxəssislər hamını orqanizmdə QİÇS virusunun olmamasına əminlik üçün analiz verməyə çağırırlar. Xəstəlik aşkarlandığı təqdirdə təcili müalicəyə başlamaq lazımdır. Müalicə Gürcüstanda pulsuz həyata keçirilir.

Hal-hazırda Gürcüstanda 6 mindən çox İİÇ infeksiyasına yoluxmuş adam qeydiyyatdan keçib. İnfeksiya patalogiyası, QİÇS və kliniki immunologiya elmi-praktik mərkəzinin məlumatına görə, yoluxanların yaş həddi 29-40 yaş arasında tərəddüd edir. İİÇ infeksiyasına yoluxanların 4,5 mindən çoxu kişi, 1,5 min nəfəri isə qadınlardır. Xatırladaq ki, 1 dekabr QİÇS-lə Beynəlxalq mübarizə günü (World AIDS Day) 1988-ci ildən qeyd olunur.

## NAZİR: TƏHSİL SİSTEMİMİZİN YENİDƏN ƏSASLI ŞƏKİLDƏ NƏZƏRDƏN KEÇİRƏLMƏSİNƏ EHTİYAC VAR

Beynəlxalq araşdırmanın nəticələrini şərh edən təhsil və elm naziri Aleksandr Cecelava təhsil sistemimizin yenidən əsaslı şəkildə nəzərdən keçirilməsinə ehtiyac olduğunu bəyan edib.

Nazirin sözlərinə görə, Gürcüstanın nəticələri yüksəlir və gələcəkdə də yüksələcək.

Aleksandr Cecelava deyib: "Biz riyazi qabiliyyət, düşüncə qabiliyyəti üzrə və bütün digər istiqamətlərdə irəli getmək üçün bütün sahələr üzrə islahatlar planlaşdırırıq, biz bir ölkə kimi, hər şey etməliyik. Bizim hökumətin prioriteti məhz buna görə təhsildir".

Beynəlxalq şagirdləri qiymətləndirmə proqramının 2015-ci il məlumatlarına görə, gürcü şagirdləri 2003-cü illə müqayisədə həm təbiət fənləri, həm oxunmanın dərk olunması, həm də riyaziyyat üzrə çox yaxşı nəticələr göstəriblər. Lakin gürcü şagirdlərinin bu üç sahə üzrə nailiyyətləri orta baldan xeyli aşağıdır.

Riyaziyyat və təbiət fənlərinin öyrənilməsi və tədrisi üzrə digər bir beynəlxalq araşdırmada – TİMSS Beynəlxalq təhsil tədqiqatına görə, 2007-2011-ci illərlə müqayisədə gürcü şagirdləri 2015-ci ildə həm riyaziyyat, həm də təbiət fənləri üzrə öz uğurlarını yaxşılaşdırıblar, buna baxmayaraq, gürcü şagirdlərinin uğurları orta beynəlxalq göstəricidən aşağıdır.

## FUTBOLDA OYUN ALQI-SATQISI

**"Dünyanın bir nömrəli idman növü hansıdır" – deyə sual verilsə, buna bir çoxumuz şübhəsiz ki, futbol deyə cavab verərik. Futbol kimilərinə görə sadəcə bəsit bir oyun olsa da, bu oyun uğrunda özünü parçalayanlar, sevimli komandası məğlub olanda hönkür-hönkür ağlayanlar, hətta bu yolda ölənlərin sayı da az deyil. Məsələn, 1985-ci ildə 39 nəfərin həyatını itirdiyi "Heyzel faciəsi", 1989-cu ildə 96 nəfərin əzilərək can verdiyi "Hillsboro faciəsi" futbol tarixindəki ən dəhşətli, ən qorxunc facilərdən sadəcə bir-ikisidir. Məlumat üçün bildirim ki, "Heyzel faciəsi" Çempion Klublar Kuboku finalında "Yuventus" – "Liverpul", "Hillsboro faciəsi" isə İngiltərə FA kuboku uğrunda yarımfinal matçı olan "Nottinhem Forest" – "Liverpul" qarşılaşması sırasında baş vermişdi. Faciənin hansı səbəbdən baş verdiyini və daha ətraflı məlumatı internetdən araşdıraraq əldə edə bilərsiniz.**

Keçək yazımın əsas mövzusuna. Futbol artıq bəsit bir oyun deyil. Hətta, deyərdim ki, günümüzdə milyard dolların dövriyyə etdiyi ən böyük qlobal bizneslərdən biridir. Və bu biznes günü-gündən çox ciddi bir şəkildə inkişaf edir. Ancaq, məşhur məsəldə deyildiyi kimi, "çox söz yalansız, çox pul haramsız olmaz".

Pulun su kimi axdığı futbol sahəsində oyun alqı-satqıları da qaçılmaz olur. Bəs oyun alqı-satqısı nədir? Adından da bəlli olduğu kimi, bir oyunu almaq-satmaq və ya oyunun nəticəsinə təsir göstərmək, oyun alqı-satqısı anlamına gəlir. Oyun alqı-satqısı iki cür olur. Ya komandaların bir-biri arasında müəyyən maddi qarşılıq nəticəsində oyunu satması, ya da tamamən kənar qüvvələrin oyunun nəticəsinə müdaxilə etməsi. Bu kənar qüvvələr kimlərdir? Gəlin ilk öncə bu haqda qısaca məlumat verim.

Yuxarıda da qeyd etdiyim kimi, futbol artıq bəsit bir oyun deyil. Milyard dolların dövriyyə etdiyi bir arenadır. Belə olan halda futbol artıq ciddi bir qumar vasitəsinə çevrilib. Bu gün bir çox ölkə futbolunun, hətta bəzi klubların sponsoru mərc oyunları şirkətləridir. Elə ölkəmizdə də "totalizator" adı ilə addımbaşı mərc oyunları salonları görməyiniz mümkündür. Yaxşı bəs mərc oyunlarının nə dəxli var deyə bilərsiniz. Məsələn, bu həftə Rustavi və Qardabani komandaları oynayır. Rustavi çox güclü komandadır və hamı Rustavinin qələbə qazanacağını gözləyir. Və insanların 90%-i Rustavinin qalib gəlməsinə mərc oyunu oynayıb, kimisi evini satıb qoyub, kimisi maşınını, kimisi isə qazanacağı ümidi ilə ailəsinin bəlkə də son qəpiyini qoyub oynayır. Ancaq gözlənilməz bir surpriz baş verir və hamının qalib gələcəyini gözlədiyi Rustavi komandası qalib gələ bilmir. Beləcə 90% insanın pulu və ümidləri itib batır. İndi bir dedektiv kimi mərc oyunlarının buna necə təsir göstərə biləcəyinə nəzər salaq. Deməli, mərc oyunları şirkəti bilir ki, bu həftə insanların 90 %-i Rustavinin qalib gəlməsinə oyun oynayıb. Rustavi qalib gəlmədiyi təqdirdə mərc oyunları şirkəti 50 milyon dollar qazanacaq. Komanda ilə müəyyən bir pul məbləğində razılıq əldə olunur və beləcə oyun satılır. Uduzan əhali, qazanan isə mərc oyunları olur. Əlbəttə, futbol surprizlərlə dolu bir oyundur. Güclü komandalar zəif komandalara bəzən gerçəkdən də məğlub ola bilərlər. Yəni, bundan sonra bütün oyunlara şübhə ilə yanaşmayın. Ümumiyyətlə, bu cür oyun alqı-satqısı çox nadir hallarda baş verir. Çünki üstü açıldığı təqdirdə oyunu satan komandaları, eləcə də bu işə qarışmış şəxsləri çox ciddi cəzalar gözləyir.

Futbolda daha ciddi oyun alqı-satqısı komandalar arasında gerçəkləşir. Belə skandallardan biri 2006-cı ildə İtaliyada yaşanmışdı. Düzdür, İtaliyadakı futbol skandalı bir az daha fərqli idi. Belə ki, polislər bir mafiya dəstəsinin telefon danışıqlarını dinləyərkən, təsadüfən işin içində futbolla bağlı skandallar da olduğunu aşkarlamışdı. Bəzi futbol klublarının mafiya liderləri vasitəsi ilə hakimlərin öz xeyirlərinə qərar verməsini istəməsi faktı üzə çıxmışdı. Faktla bağlı hüquqi proses başladılmış və bu işə qarışan, İtaliyanın ən güclü klublarından biri olan "Qoca Sinyora" ləqəbli "Yuventus" komandası 2-ci liqaya göndərilmiş, əldə etdiyi son çempionluq alınmış və xalları silinmişdi. Skandala qarışan digər italyan klubları "Milan", "Fiorentina" və "Latsio" isə ölkə çempionatına mənfi xalla başlamışdı.



Son olaraq əlavə edim ki, 2011-ci ildə Türkiyədə də oyun alqı-satqısı ilə bağlı istintaq başladılmışdı. Nəticədə Türkiyə Futbol Federasiyası heç bir kluba cəza verməsə də, UEFA "Fənərbaxça"nı 3 il müddətinə Avropa turnirlərindən kənarlaşdırmışdı. Eyni zamanda, başda "Fənərbaxça" klubunun prezidenti Əziz Yıldırım olmaqla, bir çox idarəçi həbsə atılmışdı.

**Bax belə... Bütün bunları araşdırdıqdan və oxuduqdan sonra insanın beynində sual yaranır. İzlədiyimiz, həyəcanlandığımız, sevindiyimiz, üzüldüyümüz futbol nə qədər təmizdir?**

Anar RAFİQOĞLU

## ŞAGRDLƏRİNİN 40%-İ DƏRSƏ GƏLMƏYƏN MƏKTƏBLƏR BAĞLANA BİLƏR

Qrip epidemiyasının qarşısını almaq məqsədilə Gürcüstanda məktəblər bağlana bilər. Əgər şagirdlərinin 40%-i dərsə gəlməzsə, ayrı-ayrı təhsil müəssisələrində tədris prosesi dayandırıla bilər. Analoji tədbirlər ölkədəki uşaq bağçalarına da aiddir. Bu barədə səhiyyə və sosial müdafiə naziri David Sergeyenko keçirdiyi mətbuat konfransında bəyan edib.

Dekabrın 14-də nazirlik 100 min nəfərə 250-dən çox yoluxma halı qeydə alıb. Bundan başqa, nazirlik mövsümi qrip və ya soyuqdəymə əlamətləri ilə əlaqədar çağırışların sayının artması haqqında xəbərdarlıq edib. Epidemiyanı önləmək məqsədilə nazirlik xəstəliklərlə mübarizəyə əlavə vəsait ayırıb.

Nazir deyib: "Standart protokol fəaliyyət göstərəcək, gündəlik hesabat əsasında uşaqlarının 40%-i məktəbə və ya uşaq bağçasına gəlməyən müəssisələr üçgünlük bağlanacaq".

Nazir xəstələnməmək üçün gigiyenaya əməl etməyi və əlləri tez-tez yumağı xatırladıb.

Sergeyenko məlumat verib ki, qripə yoluxmuş xəstələrlə ailə həkimləri məşğul olacaqlar. Səhiyyə nazirliyi qripin ilk əlamətləri baş qaldıran zaman təcili tibbi yardım xidmətinə deyil, məhz həkimə müraciət etməyi tövsiyə edir.

# ŞƏRQİN TƏHSİL TARİXİNDƏN

***Böyük Britaniyanın Mançester Universitetinin professoru Səlim əl-Həsaninin rəhbərliyi ilə qələmə alınmış “1001 ixtira. Müsəlman sivilizasiyasının ölməz irsi” kitabı Şərq dünyasının elm sahəsində əldə etdiyi töhfələrdən bəhs edir. Artıq bir neçə ildir ki, Avropa ölkələrində nəşr olunan və təqdimatları keçirilən bu kitab müsəlman sivilizasiyasının elmi və texnoloji aspektlərinin tarixi qiymətləndirilməsində dəyərli töhfə hesab olunur və müasir bəşəriyyətin müsəlman dünyasının yaratdığı elmi ənənələr qarşısında nə qədər borclu olduğuna bir xatırlatmadır. Əslən İraqdan olan professor S.Həsani kitabın çox maraqlı yazılma tarixi olduğunu bildirir. 1975-ci ildə Mançester Universitetinin Elmi Texnologiya İnstitutunun (UMIST) rektoru lord B.Bouden yüzilliklər ərzində müsəlmanların Çindən tutmuş İspaniyaya qədər olan böyük əraziləri necə idarə etməsinə heyran qaldığını bildirmişdi. Onların Roma imperiyası dönəmində bu torpaqlarda tüğyan edən inflyasiya ilə mübarizə üçün indeksləşdirmə prinsiplərini tətbiq etməsi isə onda xüsusi maraq oyatmışdı. O, Lordlar Palatasında bəyan etmişdi ki, inflyasiyaya məruz qalmış Birləşmiş Krallığın iqtisadiyyatını böhrandan çıxarmaq üçün müsəlmanların təcrübəsini öyrənmək və təxminən 1400 il əvvəl “Qurani-Kərim”də əks olunmuş iqtisadi prinsipləri diqqətə almaq lazımdır. Lord B.Bouden müsəlman elmləri, texnologiyalar və ticarət tarixi İnstitutu yaradaraq Mançester Viktoriya Universitetinin, Mançester Universitetinin Elmi Texnologiya İnstitutunun (UMIST) bir neçə müəllimini və Səlim əl-Həsanini burada işləməyə dəvət edib. 1993-cü ildə Elm və Texnologiyalar Tarixi Departamentinin rəhbəri, Mançester Elm və Sənaye Muzeyinin yaradıcısı professor Donald Karduell professor Səlim əl-Həsaniyə belə bir təkliflə müraciət edib: “Səlim, siz əlbəttə ki, mühəndislik fikir tarixi üçün itirilmiş minillik, biz bu dövrü Qaranlıq əsrlər adlandırırq, barədə məlumatlısınız. İtirilmiş biliklərin böyük hissəsi tanınmış kitabxanaların zirzəmilərini tutan ərəb əlyazmalarında saxlanılır. Siz nüfuzlu universitetdə mühəndislik fənləri üzrə peşəkar müəllimsiniz və ərəb dilini bilirsiniz. Buna görə də siz bu boşluğu doldurmağa daha çox layiqsiniz”.***

“Bu çağırış məni tədqiqatlar yolu ilə hərəkət etməyə sövq etdi, həyatımı dəyişdi. Məhz o vaxtdan bu kitabın tarixi başladı. 1993-cü il oktyabrın 27-də mən Oksfordda Şeldon teatrında kral əlahəzrətləri şahzadə Çarlzın “İslam və Qərb” adlı seminarında iştirak etdim. Onun çıxışındakı aşağıdakı fraqment mənim qənaətlərimi möhkəmləndirdi: “Mərkəzi Asiyadan Atlantik okeanın sahillərinə qədər müsəlman dünyası elm və təhsilin çiçəkləndiyi dünya idi”,-deyə professor S.Həsani kitabının giriş hissəsində yazır. Bir neçə ildən sonra professor D.Karduell Fəlsəfə və Ədəbiyyat Cəmiyyətində S.Həsaninin “Elm və texnologiyada müsəlman töhfəsi” adlı tədqiqat işlərinin təqdimatını keçirib.

2006-cı ildə professor Səlim əl-Həsaninin rəhbəri olduğu Elm, Texnologiya və Sivilizasiyalar Fondu “Min bir ixtira” layihəsi üzərində işlərə başlayıb. Həmin dövrdən etibarən müsəlman sivilizasiyasının elmi nailiyyətlərinə ictimai maraq sürətlə artmağa başlayıb. Birləşmiş Krallığın bir çox xeyriyyə təşkilatları, hökumət, elm və təhsil müəssisələri bu layihənin sponsoru kimi çıxış ediblər. “Min bir ixtira” kitabının ilk iki nəşri 100 min tirajla satılıb. Fond 2010-cu ildə Londonda dünyada məşhur olan Elm muzeyində “Jameel Foundation” (ALJCI) fondunun dəstəyi ilə müsəlman sivilizasiyasının elmi nailiyyətlərinə həsr olunmuş sərgi təqdim edib. Cəmi 5 ay ərzində sərgini 400 min insan ziyarət edib, onlardan böyük qismi isə əvvəllər bu muzeydə heç vaxt olmayıblar. Daha sonra sərgi-təqdimatlar Nyu-Yorkda, Los-Ancelesdəki Kaliforniya Elm Mərkəzində də təşkil olunub.

“Min bir ixtira” Britaniya Elm, Texnologiya və Sivilizasiyalar Fondunun irimiqyaslı təhsil layihəsidir. Kitab və eyniadlı sayt VII-XVIII əsrlər dönəmində müsəlmanların nailiyyətləri barədə biliklərin yayılması üzrə qlobal proqramın yalnız kiçik hissəsidir. İdeyanı ilk olaraq ingilis dilində həyata keçirən müəlliflər layihənin digər dillərdə də versiyasının yaradılmasını qarşıya məqsəd qoyublar. Kitab bir neçə ildən sonra ərəb dilində, ən sonda isə rus dilində çap olunub.

Məktəbdə keçirdiyimiz illər sayəsində biz sevimli müəllimlər, fənlər və idman bayramlarından tutmuş çətin imtahanlara qədər müxtəlif hadisələrlə bağlı çoxsaylı xatirələr qazanırıq. Bizim həyatımız lazımi səviyyədə biliklər alaraq məktəbi tərk edənə qədər dərslə bağlı olur.

Müsəlman ölkələrində min illər əvvəl məscidlər məktəb rolunda çıxış edib. Din və məktəb bir-birindən tamamilə fərqlənməyib, çünki məscid həm ibadət, həm də tədris yeri olub. Öyrənilən materiallar, təbiətşünaslıq, din və elmlər komfort olaraq yanaşı mövcud olublar, bunu isə dünyanın digər ölkələrində olan məktəblər barədə həmişə demək olmaz. Danimarkalı tarixçi Yohannes Pedersenin sözlərinə görə, tədris “dinlə sıx bağlı idi, özünü hər




ikisinə həsr etmək isə daxili məmnunluq və Allaha ibadətə gətirirdi, alimləri nəinki məhrumiyyətlərə qarşı dözümlü edir, hətta başqalarını da onlara kömək göstərməyə sövq edirdi”. Məhəmməd peyğəmbər (s.ə.s) məscidləri tədris məkanına çevirərək onlara baş çəkməklə, rəhbərlik etməklə tədris prosesinə nəzarət edirdi. Təsis olunan bütün ibadət evlərində baza təhsilinə başlanılırdı. O, hətta “Qurani-Kərim”i öyrənmiş müəllimləri “əhl əl-ülam”ları (bilik sahiblərini) ərəb qəbilələrinə göndərirdi. Bu isə təhsilin hər yerdə yayılmasına xidmət edir və səyahət edən müəllimlərə öz tələbatlarını təmin edə biləcək həyat sürmələrinə imkan verirdi. Coğrafiyaçı, tacir və X əsrin səyyahı İbn Xaukal Palermoda ibtidai məktəbdə 300 müəllimin işlədiyini xəbər verirdi.

VII əsrdə Məhəmməd peyğəmbərin dönəmində Mədinədə 9 məscid var idi. Burada ilk məktəb 622-ci ildə yaradılıb, daha sonra isə bu ideya bütün dünyaya yayılıb. Dəməşqdə (Suriya) bu cür məktəb 744-cü ildə yaradılıb. VIII əsrdə məktəblər Kordovada (İspaniya) da yaradılıb. IX əsrin sonlarında isə, demək olar ki, bütün məscidlərin nəzdində oğlan və qızların təhsili üçün ibtidai məktəblər olub.

Demək olar ki, 6 yaşlı bütün oğlanlar və bəzi qız uşaqları ibtidai məktəblərə gedirdi. Varlı ailələrdən olan uşaqlar isə fərdi təhsil alırdılar. Təhsil adətən pulsuz və ya o qədər ucuz idi ki, hamı üçün əlçatan idi. İlk yazı dərslərinin birində Allahın 99 gözəl adlarının və “Qurani-Kərim”dən sadə şeirlərin necə yazılması öyrədilirdi. Daha sonra isə “Qurani-Kərim”in diqqətlə öyrənilməsi və hesablama qaydalarının mənimsənilməsinə başlanılırdı.

X əsrdə dərslər məscidlərdən müəllimlərin evlərinə keçdi. Bu isə məktəbin getdikcə inkişafından xəbər verirdi. Bu, əvvəlcə İranda baş verdi. Daha sonra səlcuqlar 1066-cı ildə Bağdad vəziri Nizam əl-Mülkün şərəfinə adlandırılan Nizamiyyə mədrəsəsini yaratdılar. Bu, sözün tam mənasında əsl məktəb idi, onun tədris məşğələlərinin



aparılması üçün ayrıca binası var idi. Lakin öz əməkləri müqabilində maaş alan müəllimlərin işlədikləri binalar hələ islamın ilk günlərində yaranmağa başlamışdır.

İslamın ilk dövrlərində məktəblər təhsil səviyyəsindən asılı olaraq 4 kateqoriyaya bölünürdü: adi, orta (“oxucular otağı”), “hədislər evi” və tibbi.

Adi məktəblər ümumtəhsil xarakteri daşıyırdı və ibtidai təhsilə uyğun idi. Şagirdlər bu mərhələni başa vurduqdan sonra birinci səviyyə üzrə şəhadətnamə alırdılar və orta təhsil səviyyəsinə keçə bilərdilər. Bu cür məktəblər daha çox yayılmış təhsil ocaqları idi, onlar bütün kəndlərdə fəaliyyət göstərirdilər.

Dar əl-kurra və yaxud “oxucular evi” orta məktəb idi, burada ərəb dili bilikləri təkmilləşdirilir, yeni oxu vərdişləri və Quranın oxunuşu qaydaları mənimsədilirdi. Burada həm də imamlar və müəzzinlər hazırlanırdı.

Dar əl-hədis və ya “hədislər evi” Məhəmməd peyğəmbərin (s.ə.s) kəlamlarının, hədislərinin tədrisi və tədqiqi üzrə ixtisaslaşmışdı. Bu məktəbin məzunları öz statusuna görə universitet təhsilinə ekvivalent olan təhsil alırdılar və dini müəssisələrdə çalışa bilərdilər.

İlk tibb məktəbi 1231-ci ildə Dəməşqdə açılıb. Buna qədər isə tibb təhsilini yalnız xəstəxanada və ya həkim yanında şagirdlik etməklə almaq olardı. Lakin tibbin ixtisaslaşmış müəssisələrdə əsl tədrisi yalnız XVI əsrdə Sultan Süleymanın hakimiyyəti dövründə kök saldı.

Müsəlman torpaqlarında digər binalar kimi məktəblərin tikintisində də pula qənaət olunmurdu, gözəllik bu cür tikililərin mühüm xüsusiyyəti idi. Onların hər birində bir, iki, üç və ya dörd eyvanlı daxili həyət var idi. Həyətdə dərslər keçilir və ibadət icra olunurdu. Həyətdə yaşayış tikililəri (fərdi otaqlar) və dəstəmaz kompleksi var idi. Dövlət və ya hakim xəlifə tədrisin gedişinə nəzarət edirdi, müəllimlər isə pedaqoji fəaliyyət göstərmək üçün icazə almalı idilər.

XIV əsrin müsəlman pedaqoqu İbn əl-Xac deyirdi: “Məktəbləri uzaq yerlərdə deyil, bazarlarda və ya insanların çox olduğu yerlərdə yerləşdirmək lazımdır. Bu, tədris müəssisəsidir, yeməkxana deyil, oğlanlar evlərindən məktəbə yemək və ya pul gətirməməlidirlər. Müəllimlərin köməkçiləri olmalıdır, onlar şagirdləri və digər ziyarətçiləri (onların titullarına uyğun olaraq) yerlərdə oturtmalı, yatanları oyatmalı, uyğun olmayan işlərlə məşğul olanlara və ya öz vəzifələrinə əməl etməyənlərə iradını bildirməli və onları dərsə qulaq asmağa çağırmalıdır. Dərsdə danışıqlar, gülüş və zarafatlar qadağandır”.

XV əsrdə türklər İstanbul və Ədirnə kimi şəhərlərdə tədris kompleksləri yaratmaqla təhsildə islahatlar apardılar. Yeni sistem külliye adlanırdı və özündə məscidli universitet kampusu, xəstəxana, məktəb, ictimai mətbəx və yeməkxananın təşkil olunmasını nəzərdə tuturdu. Bu isə tədrisin geniş təbəqələr üçün daha açıq olmasını təmin edirdi, kompleksdə pulsuz qida, tibbi xidmət, bəzən də yaşayış yeri ilə təmin olunmaq imkanı var idi. Belə bir sistem İstanbulda 16 məktəbdən ibarət Fatih-Külliyəsi idi, burada təbiətşünaslar və ilahiyyatçılar dərs keçirdi.

Bütün bunlar üçün pullar haradan əldə olunurdu? Vəsaitlər vergidən daha çox dövlət fondlarından, vəqf adlandırılan xeyriyyə ianələrindən əldə olunurdu. İslama qulluq edən istənilən şəxs xüsusi təsisçi aktı ilə məktəb yarada bilərdi. Maliyyə vəsaitlərinin ayrılması məktəblərin saxlanması, müəllimlərin əməkhaqqının verilməsi, yaşayış, təhsil alanların yeməklə təmin olunması, ehtiyacı olanlara təqaüdlərin verilməsi kimi xərclərin ödənməsini təmin edirdi.

Təhsil çox yüksək qiymətləndirildiyindən ona pulları səxavətlə verirdilər və bu sahə çiçəklənirdi. XIV əsrin müsəlman səyyahı İbn Battuta bütün təhsil xərcləri ödənilmiş məktəbli haqqında yazırdı: “Təlim keçməyi və özünü dini həyata həsr etməyi arzulayan hər kəs bu məqsədlərinə nail olmaq üçün bütün zəruri köməyi alırdı”.

**XXI əsrdə bir çox tələbələr pulsuz təhsil almağı arzulayır, XIV yüzillik uzaq keçmiş kimi görünsə də, o dövrün müəssisə sistemi, onun təşkili üsulları, logistikası barədə öyrənə biləcəyimiz bir neçə tövsiyə var ki, onlar bu gün də faydalıdır.**

Oruc MUSTAFAYEV

# GÜRCÜ YAZIÇISI QRİQOL ROBAKİDZE VƏ ONUN ÜÇÜNCÜ SAHİLİ...

**Qriqol Robakidze Gürcüstanın böyük ədəbi simalarından biridir. O, öz əsərlərini mükəmməl bildiyi üç dildə - gürcü, rus və alman dillərində yazmışdır.**

Sovetlər dönəmində Robakidzenin əsərlərinə uzun illər tabu qoyulmuşdur. Bununsa müəyyən səbəbləri vardı.

Məşhur ədib 1880-ci il oktyabr ayının 28-də Kutaisi yaxınlığındakı Sviri kəndində dünyaya göz açıb. İndi səhv etmirəmsə, həmin kəndə şəhər statusu verilib. Robakidzelər ailəsində dörd uşaq vardı: Qriqol və onun üç bacısı. Bəzi mənbələrdə Robakidzenin 1884-cü ildə doğulduğu qeyd olunur. Bunun "günahkarı" yazıçının özü olub. Sonralar o, öz yaşından az göründüyü üçün, bu cür "düzəlişə" qol qoyduğunu etiraf edib.



Qriqol Robakidze haqda söz açmağımız heç də təsadüfi deyildir. Məsələ burasındadır ki, onun taleyi Azərbaycanla bağlı olub. Bu barədə bir qədər sonra.

Qriqol ədəbiyyat adamları arasında Qriqoriy Titoviç Robakidze kimi də tanınır.

Robakidze altı yaşında Kutaisidəki ruhani məktəbinə daxil olmuş, 1895-ci ildən 1901-ci ilə qədərsə ruhani seminariyasında təhsil almışdır. Kutaisidə təhsilini başa vurduqdan sonra 1901-ci ilin avqust ayında Yuryev (İndiki Tartu) universitetinin hüquq fakültəsinə qəbul olunub. Amma təhsil haqqını ödəyə bilmədiyi üçün həmin ilin dekabr ayında universitetdaən uzaqlaşdırılıb.

Qriqol daim oxumaq, təhsil almaq arzusu ilə yaşayırdı. Elə buna görə də 1902-ci ildə Almaniyaya gedərək Laypsik universitetinin fəlsəfə fakültəsinə daxil oldu.

Təhsilini başa vuran gənc ədib 1908-ci ildə vətənə dönərək Kutaisi və Tiflis şəhərlərində kütləvi mühazirələr söyləməyə başladı. O, daha çox xarici ölkələrin, xüsusən Avropa xalqlarının ədəbiyyatını və mədəniyyətini tədris və təbliğ edirdi. Dinləyicilər onun hər çıxışını maraqla qarşılayırdılar.

Robakidze hələ o zamanlar (1907-ci ildən etibarən) tez-tez Rusiyanın paytaxtına səfər edirdi. Əvvəllər onu Fridrix Nitsşenin yaradıcılığı daha çox cəlb edirdi. Peterburqda yaşayan Andrey Belıy, Zinaida Gippus, Valeri Bryusov, Nikolay Qumilyov və başqaları ilə tanışlıq onun həyat və yaradıcılığında yeni bir mərhələnin əsasını qoydu. Bu əlaqələr sonralar dostluğa çevrildi. O, ciddi yaradıcılığa da həmin dövrdən başlamışdır.

Artıq qeyd etdiyimiz kimi, Qriqol Robakidze vaxtilə Tartu universitetində qısa bir müddətdə də olsa təhsil almışdı. O, yenidən öz arzusunun arxasınca həmin universitetə üz tudu. 1910-1914-cü illər arasında burada hüquq fakültəsində təhsil almağa başladı. Qriqolun Tartudakı tələbəlik illəri başdan-başa axtarışlar dövrü kimi səciyyələndirilə bilər. Fəlsəfi təfəkkürlü yazıçı həmin vaxtlar öz yolunu, daha doğrusu, özünü axtarırdı.

Təhsil illərində Robakidze simvolizmlə bağlı təsəvvürlərini daha da genişləndirdi. Universitet dövründə (1913-cü ildə) o, "Həyatın estetik həlli" adlı referat işi yazdı. Sonralar "Kavkaz" qəzetində dərc etdirdiyi elmi-publisistik yazıların bir çoxunda o simvolizm və ümumiyyətlə ədəbiyyat haqqında fikirlərini daha da konkretləşdirməyə çalışırdı. Robakidze simvolizmə nə qədər maraq göstərsə belə bu cərəyanın çatışmayan cəhətlərini də nəzərə çarpdırırdı.

Qriqol Robakidze 1915-ci ildə yenidən vətənə döndü.

Gürcüstana gəldikdən sonra gənc ədib gənc şairlərdən ibarət "Mavi şeypurlar" adlı bir qrup yaratdı. Həmin qurumun əsas vəzifəsi gürcü poeziyasını Qərbi Avropa və rus simvolizmi zəminində yeni bir məcraya yönəltməkdən ibarət idi. Qrupa T.Tabidze, P.İaşvili, V. Qaprindaşvili kimi istedadlı söz adamları daxil idi.

Titsian Tabidze öz jurnalının birinci sayında Robakidzeyə həsr etdiyi məqaləd onu "modernizm yevangeleyasını" gürcülər üçün ilk dəfə açan ustad adlandırırdı.(Yevangeleya – İsa peyğəmbərin həyatına və təliminə həsr olunmuş kitab və ya kitablar toplusu – F.M.)

Robakidze gecə-gündüz axtarışda idi. O, daim yeniliyə can atırdı. Artıq bir tədqiqatçı və yazıçı kimi öz ölkəsindən kənarda tanınmağa başlamışdı.

Onun rus həmkarları Vyaç. İvanov, A. Belıy, A. Blok, K. Belmont, V. Bryusov haqda yazdığı məqalələr öz dəyərini bu gün də itirməyib.

Qriqol 1917-ci ildə bir müddət Birinci Dünya müharibəsində hərbi müxbir kimi iştirak edib. O, həmin vaxt şəfqət bacısı Nina Domanskaya ilə tanış olub. Tezliklə onlar ailə qurublar. Bu izdivacdan onların Mira adlı qızları dünyaya gəlib. Ninanın və Miranın Azərbaycanla bağlı olan gələcək taleyi haqda bir qədər sonra məlumat veriləcək.

Gürcüstanın müstəqillik əldə etdiyi mərhələdə (1918-21-ci illərdə) Qriqol Robakidze yeni quruluşun siyasətini can-başla dəstəkləyir, Noe Jordaniyanın hökumətində qanunların redaktəsi və tərtibi ilə məşğul olur. O, dövlət işində çalışmaqla yanaşı, öz pedaqoji fəaliyyətini də davam etdirir, 1918-ci ildə Tiflis Universitetində dərs deməyə başlayır.

Gürcüstan Baş nazirinin Noe Jordaniyanın dostu olan Qriqol Robakidze Azərbaycan Demokratik Respublikası Milli Şurasının sədri Məmməd Əmin Rəsulzadə və Bakı Universitetinin ilk rektoru professor V. İ. Razumovski ilə də tanış idi. 1920-ci ilin mart ayında Bakıda rus dilində çapdan çıxmış, "1920-ci il üçün Azərbaycan Respublikasının təqvim-ünvanında" qeyd edilir ki, M. Ə. Rəsulzadə özü də bir müddət BDU-nun Tarixi-filologiya fakültəsində "Osmanlı ədəbiyyatı tarixi"ndən dərs demişdir.

Robakidze artıq alman ədəbiyyatının bilicisi kimi məşhurlaşmışdı. Elə buna görə də onu bir mütəxəssis kimi Azərbaycan Demokratik Cümhuriyyətində yeni fəaliyyətə başlayan Bakı Universitetinə dəvət etdilər.

Universitetin açılması barədə qərar 1919-cu il sentyabrın 1-də Azərbaycan Cümhuriyyətinin parlamenti tərəfindən qəbul edilmişdi. Universitet Şurasının 1919-cu il noyabrın 10-da olan ilk iclasında professor-müəllim heyətinin tərkibi təsdiq edilib, 15 noyabr 1919-cu il tarixə Bakı Universitetinin ilk dərs günü kimi daxil olub.

Bakı Universitetinin ilk tədris ilində cəmi 2 fakültə – tarix-filologiya və tibb fakültələri fəaliyyət göstərirdi. Universitetin ilk rektoru Kazan Universitetinin professoru, məşhur cərrah V.İ.Razumovski olmuşdur. Qriqol Titoviç 1919-20-ci illərdə həmin universitetdə alman və rus dillərində Alman romantizmi üzrə mühazirələr söyləməyə başladı.

Həmin illərdə Azərbaycan sanki özünün intibah dövrünü yaşayırdı. Rusiyada qurulmuş Sovet hakimiyyətini qəbul etməyən rusiyalı sənət adamları axın-axın Bakıya gəlirdilər. Bakı bu dövrdə sənətin, yaradıcılığın bir "azadlıq adası" kimi tanınırdı.

Güman etmək olar ki, Robakidze bu dövrdə Bakıdakı ziyalılarla da ünsiyyətdə olmuşdur.

**Gürcüstanda qurulmuş müstəqil dövlət 1921-ci il fevral ayının sonlarında süquta uğradı. Qriqol vətəninə qayıtmalı oldu. İlk dövrlərdə yeni qurulan Sovet quruluşu ilə Robakidze arasında kəskin bir "ixtilaf" yox idi. O, 1921-1925-ci illərdə Maarif Nazirliyində İncəsənət şöbəsinə, habelə ölkənin Yazıçılar Birliyinə rəhbərlik etmişdir.**

**Firuz MUSTAFA**

**(davamı gələn sayımızda)**

# ERMƏNİ ƏLİFBASI – HƏBƏŞ ƏLİFBASININ BƏHRİSİ



**Tekola Xakos: "Ermənilərin bizim əlifbanı mənimsədiyini eşidəndə şoka düşdüm".**

Dünyada tanınmış həbəş politoloqu, professor, bir çox kitabın müəllifi və kralların həyatının tədqiqatçısı – Tekola Xakos yeni tarixi kitab üzərində işləyir.

Kitab həbəş əlifbasına, onun yaranması və inkişaf tarixinə həsr olunur. Professor Xakosun fikrincə, həbəş əlifbası bizim dövrə qədər gəlib çıxan ən qədim əlifbalardan birini təşkil edir.

Özünün yeni kitabının bəzi məqamları barədə o, öz fikrini AzQlobus. Net İnformasiya-Analitik Pottalının jurnalisti ilə bölüşüb.

- Cənab Xaqos, ermənilərin həbəş əlifbasını mənimsədiyini nə zaman duydunuz?

- Bu barədə ilk dəfə 2010-cі ildə Türkiyəyə gedəndə duydum. Məzuniyyətimi keçirmək və elə bu zaman bu gözəl, qədim və sirli ölkənin görkəmli yerləri ilə tanış olmaq üçün ora yollandım. Yeniyetməlik çağından Kiçik Asiyada yerləşən ölkələrin tarixi məni maraqlandırırdı. Troya, Sparta, Bizans, Səlcuqlar sultanlığı barədə və nəhayət, mən deyərdim ki, bəşəriyyət tarixində ən güclü və əzəmətli imperiya barəsində çoxlu kitablar oxumuşam. Bu imperiya və türk xalqı dünya tarixində, onun hadisələrinə kəskin dəyişikliklər daxil etməklə çox böyük xidmət göstərmişdir; Konstantinopolu almaqla – mətanətli mübarizə ilə və sultan Mehmedin əla döyüş planı ilə. Sözün qısası, bu ölkəyə valeh olmuşam.

- Bəs, "Erməni məsələsi" barədə necə məlumat aldınız?

- Əddis-Əbəbə Universitetinin alimi, tarixçi dostumla birlikdə İstanbulda Topqapıdan başlamış, müasir Hərbu muzey də daxil olmaqla bütün muzeylərə baş çəkdik. İstanbulun bütün kitabxanalarında oldum. Istanbul Universitetinin kitabxanasında bir kitaba rast gəldim ki, orada da 1915-si ilin olayları: Osmanlı imperiyasının dağılması, Türkiyənin daxili mübarizələri və bu nəhəng imperiya ətrafında o dövrdə bir çox düşmən tərəfindən işgəncə verilən geocoğrafi proseslər müfəssəl şəkildə təsvir edilmişdi. Nəhayət, məhz elə bu kitab məni arxivlərə apardı. Bütün əlçatan materialları öyrənirdim, bütün ədəbiyyatla ingilis dilində tanış olurdum. Sonra, internetdə alternativ informasiya axtarırdım, ermənilərə məxsus coxlu resursla rastlaşdım. Bir sözlə, bu işi öyrənmək üçün heç də az vaxt itirmədim. Bütün sənədlərlə, erməni ədəbiyyatı ilə, üzdəniraq "erməni soyqırımı" ilə tanış oldum. İstanbul arxivi rəhbərliyinin icazəsi ilə üzünü çıxartdığım bəzi sənədlərin öyrənilməsini davam etdirdim və Türkiyədən qayıdandan sonra, sadəcə olaraq, ermənilərin belə məharətlə, abır-həya gözləmədən, ədəbsizlik və namussuzluqla tarixi faktları eybəcərləşdirməsi məni heyrətləndirdi. İlk dəfə erməni dilində yazılan hansısa kitabı əlimə alanda sadəcə olaraq şoka düşmüşdüm. Əvvəlcə, elə fikirləşdim ki, bu həbəş dilində olan kitabdır, çünki, hərflər bizim qədim əlifbadan götürülmüşdü. Çaş-baş halda mənim üçün anlaşılmaz dildə tərtib edilmiş bu kitabı vərəqləyirdim və mənim gözlərim önündə Yer üzündə ən qədim əlifbalardan biri olan həbəş əlifbasının qədim nümunələri canlandı. Bu, bizim əcdadlarımızın min illər əvvəl yazdıqları hərflərimizin surəti idi. Təəccübdən az qala bağırmaq istədim, bu hərfi işarələri öz dostuma, Əddis-Əbəbə Universitetindən olan tarixçiyə göstərdim. O, gülümsündü və mənə dedi: "Məgər, sən doğrudan da bilmirdin? Bizim hərflərlə yazmağı dayandırana kimi, ermənilər bütün dünyaya onu erməni əlifbası kimi təqdim etdilər. Şəxsən mən universitetdə bu mövzuya bir neçə məruzə həsr etdim. Dünya elmi isə, bilir ki, bu həbəş əlifbasıdır, lakin, budur, ermənilər onu özlərininki kimi təqdim edirlər" – dostum mənə cavab verdi.

**ETHIOPIAN NUMBERS**

| English | Amharic | Amharic Pronunciation | English Pronunciation | English | Amharic | Amharic Pronunciation | English Pronunciation |
|---|---|---|---|---|---|---|---|
| 1 | ፩ | አንድ | And | 20 | ፳ | ሃያ | Haya |
| 2 | ፪ | ሁለት | Hulet | 30 | ፴ | ሰላሳ | Selasa |
| 3 | ፫ | ሦስት | Sost | 40 | ፵ | አርባ | Arba |
| 4 | ፬ | አራት | Arat | 50 | ፶ | ሃምሳ | Hamsa |
| 5 | ፭ | አምስት | Amist | 60 | ፷ | ስልሳ | Silsa |
| 6 | ፮ | ስድስት | Sidist | 70 | ፸ | ሰባ | Seba |
| 7 | ፯ | ሰባት | Sebat | 80 | ፹ | ሰማንያ | Semanya |
| 8 | ፰ | ስምንት | Simint | 90 | ፺ | ዘጠና | ZeTena |
| 9 | ፱ | ዘጠኝ | ZeTeñ | 100 | ፻ | መቶ | Meto |
| 10 | ፲ | አስር | Asir | 1,000 | ፲፻ | ሺ | Shee |

- Məhz elə bu fakt sizi həbəş əlifbası barədə yeni kitab yazmağa vadar etdi?

- Bəli, milli əlifbamızın məhz bu ədəbsiz oğurluğu, məndə yeni tədqiqatlar aparmaq və əlavə faktlar axtarmaq istəyi yaratdı. Ermənilərin sırtıqlığının, görünür, həddi-hüdudu yoxdur. Mən özümün yeni kitabımda bu yalanı saf su ilə təmizləyəcəyəm və bütün dünya başqa xalqların elmi və mədəni irsini mənimsəyən erməni tarixçilərinin bu xəyanətkar cəhdini biləcək. Kitab kifayət qədər rəngarəng olacaq. Ona Osmanlı imperiyasında baş verən olayları əlavə edəcəyəm; kitabımda vətəndaşları olduqları dövlətlərin əleyhinə ermənilərin ayaqaltı eşmək fəaliyyətləri də, şübhəsiz, öz əksini tapacaqdır.

-Sizə nailiyyətlər, dünya tarix elmi üçün bu böyük həsədaparıcı işdə böyük əzmkarlıq arzulayıraq. Ümidvarıq ki, sizin kitabınız bəşəriyyət tarixinin çoxlarının görmədiyi və ya da səhv məlumatlandırıldlığı qaranlıq tərəflərini aydınlaşdıracaqdır.

**-Çox sağ olun ki, məni axtardınız, mənimlə söhbət etməyə vaxt ayırdınız və bir də ona görə ki, sizin oxucu kütləsini bütün dünyanın bilməli olduğu faktlarla tanış edirsiniz. Ümidvaram ki, nəşrindən sonra bu kitab üzdəniraq erməni tarixçilərinin birdəfəlik maskasını açacaq və bütün dünya onun gerçək məğzini biləcək.**

"Literatutruli qəzeta" 11 noyabr 2016-cı il.

Tərcümə edən: Mirzə MƏMMƏDOĞLU

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

15 dekabr 2016-cı il
№023 (37)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## QARABAĞLI TOMRİS MUSTAFAZADƏ İNDONEZİYADA KEÇİRİLƏN YARIŞIN QALİBİ OLUB



Dünya su idmanı yarışlarında sualtı üzgüçülük növü “fridayvinq” adlanır. Əslində bu idman növü ən yeni sahə sayılır. Sualtı üzgüçülük yarışında əsas şərt idmançının öz nəfəsi ilə hovuzun, dənizin və ya okeanın dərin qatlarında üzməsidir. Keçən əsrin 80-ci illərindən başlayaraq qadınlar arasında fridayvinq idman növü papulyarlıq qazanmağa başladı. Azərbaycanda hələ ki, bu idman növü kütləvi xarakter almasa da, fridayvinqlə peşəkar səviyyədə məşğul olan ilk azərbaycanlı qızı, qürbətdə yaşayan, əslən Qarabağlı Tomris Mustafazadə İndoneziyada keçirilən fərdi yarışmada okeanın 18 metr dərinliyində üzərək qalib gəlib. Bu xəbəri “Mirzə Xəzərin səsi” online qəzeti yayıb.

Tomris Niderland Krallığını təmsil etsə də, qələbəsini mobil telefonunda Azərbaycan bayrağını numayiş etdirməklə qeyd edib. O, Facebook səhifəsində bunları yazıb: “fridayvinq idmanı ilə məşğul olan ilk azərbaycanlı qızı olmağımla fəxr edirəm”.

Tomris Mustafazadə Bakıda doğulub və bir yaşı olanda valideyinləri ilə birlikdə Avropaya mühacirət edib. Uşaqlıqdan üzgücülük, yüngül atletika, kingboks və idmanın digər növləri ilə məşğul olan Tomrisin son illər fridayvinq idman növü hobbisinə çevrilib. Tomris Mustafazadə Amsterdam Dövlət Universitetinin hüqüq fakültəsini bitirərək “İnsanlığa qarşı cinayət ixtisası” üzrə magistr dərəcəsi alıb və hazırda Hollandiyanın hüquq mühafizə orqanlarında çalışır.

Onu da qeyd edək ki, dilçiliyə böyük həvəs göstərən Tomris Mustafazadə ana dilindən başqa, əlavə 7 dildə sərbəst danışır. Tomris Avropada ilk milli diaspor təşkilatlını yaradanlardan biri, “Avropada Azərbaycanın Dostları Cəmiyyəti”nin sədri və Polşada çap olunan “Xudafərin” dərgisinin təsisçi-baş redaktoru Elman Mustafazadənin qızıdır.

## NONA QAPRİANDAŞVİLİ NÖVBƏTİ DƏFƏ DÜNYA ÇEMPİONU OLDU



Məşhur gürcü şahmatçısı Nona Qapriandaşvili Çexiyanın Mariansk-Lazne şəhərində başa çatan turnirdə senyorlar arasında (65 yaşdan yuxarı şahmatçılar arasında) dünya çempionu titulunu qazanıb. Məlumatı FİDE-nin rəsmi saytı yayıb.

Qapriandaşvili doqquz mümkün xaldan səkkizini (7 qələbə və 2 heç-heçə) toplayaraq turnirin ikincisi olmuş Rusiya şahmatçısı Yelena Fətəlibəyovu bir xal qabaqlayıb. Turnirin bürünc medalı Tamara Xmiadaşviliyə nəsib olub. O, aktivinə 6,5 xal yazdıra bilib.

Qapriandaşvili üçün bu qələbə dalbadal üçüncü və turnirin tarixində sayca beşinci olub. 50+ yaşlı kişilər arasında Gürcüstanın daha bir nümayəndəsi – Georgi Baqaturov dünya çempionu adını qazanıb. Bu kateqoriyada daha bir Gürcüstan şahmatçısı – Zurab Sturua turnirin üçüncüsü olub. Gürcüstanın iki nümayəndəsi arasında yerləşən Ukrayna şahmatçısı Aleksandr Peprintsev turnirin gümüş medalını qazanıb.

## QIZARDILMIŞ QİDALARIN 5 ZİYANI



Hamı bilir ki, qızardılmış qidalar ziyanlıdır, lakin bunun səbəbini bir çoxları dəqiq bilmir.

Qızardılmış qidaların 5 ziyanını təqdim edirik:

1. Qızardılmış qida çətinliklə həzm olunur, mədə-bağırsaq sistemini yükləyir, mədədə diskomforta, ağrılara, qıcqırmaya, qəbizliyin inkişafına səbəb olur.

2. Qızardılmış qidalarda suda və ya buğda bişirilmiş qidalarla müqayisədə kalori daha çoxdur. Bu da artıq çəkiyə səbəb olur.

3. Qızardılmış qidalar orqanizmdə xolesterinin səviyyəsinin qalxmasına səbəb olur. Bu isə aterosklerozun inkişafına gətirib çıxardır. Ateroskleroz zamanı xolesterin damarlarda yığılır, damarlar daralır, elastikliyini itirir. Bütün bunlar ürək xəstəliklərinin, hipertoniyanın, infarkt və insultun əsas səbəbləridir.

4. Yağın uzun müddət ərzində qızdırılması nəticəsində “akrolein” maddəsi əmələ gəlir. Bu maddə çox təhlükəli kanserogen (xərçəngə səbəb olan) sayılır. Dünyada aparılan çoxsaylı araşdırmalar göstərir ki, qızardılmış qidaların (xüsusilə qızardılmış qırmızı ətin) tez-tez qəbulu xərçəng xəstəliklərinin riskini artırır.

5. Qızardılmış qidalar orqanizmdə iltihabın səviyyəsinin artmasına səbəb olur. Bu isə orqanizmdə müxtəlif iltihabi xəstəliklərin kəskinləşməsinə və bəzi xəstəliklərin inkişafına (məsələn, Alsheymer xəstəliyi) səbəb olur.

## ÜÇ GÜRCÜ YAZI NÖVÜ DÜNYANIN MƏDƏNİ İRS SİYAHISINA DAXİL EDİLDİ



Gürcüstanın mədəniyyət naziri Mixail Qiorqadzenin verdiyi məlumata görə, üç gürcü yazı növünə – Asomtavruli, Mxedruli və Nusxuriyə YUNESKO-nun qərarı ilə dünyanın qeyri-maddi mədəni irsi statusu verilib. Bu qərar YUNESKO-nun Efiopiyada keçirilən 11-ci sessiyasında qəbul edilib.

Gürcüstan indiyədək YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına nadir gürcü çoxsəsliliyinə (polifoniya) və gil qabda şərab hazırlamağın qədim üsuluna görə daxil edilmişdi. Üç gürcü yazı növünün bu beynəlxalq qrumun siyahısına daxil edilməsi ilə Gürcüstan öz uğurunu üçə yüksəldib.

Əski gürcü yazısı Mrqlovani və ya Asomtavruli erkən orta əsrlərdən istifadə edilmiş, hərflərin yuvarlaqlığı və eyni ölçüdə olması ilə fərqlənməklə IX-X əsrlərədək yayılmışdı. IX əsrdən Nusxuri (kilsə) yazısı meydana çıxmışdır. Bu yazı qənaətcilliyinə görə fərqlənirdi. XI əsrdən etibarən yuvarlaq forması olan Mxedruli və ya mülki yazı inkişaf etmişdir.

Nusxuri və Mxedruli əsrlər boyu mövcud olmuş, birincisi kilsədə, ikincisi mülki həyatda istifadə olunmuşdur. XVII əsrdə Nusxuridən nadir hallarda istifadə olunaraq geniş istifadən çıxmış, hərflərin şəkli forması isə sabitləşmişdir.

## QAN İTİRMİŞ XƏSTƏLƏRİ XİLAS EDƏN TOZ ŞƏKLİNDƏ QAN YARADILDI



Bir çox ölkələrdə alimlər uzun illər ərzində süni qanın yaradılması üzərində işləyir. Növbəti kəşf onları bu məqsədə daha da yaxınlaşdırıb.

Medical Daily xəbər verir ki, Vaşinqton Universiteti (ABŞ) alimləri toz şəklində qan yaradıblar. Steril su əlavə etməklə bu tozu saniyələr ərzində qana çevirmək mümkündür. Alınan bu maye, daha doğrusu süni qan 12 saat ərzində pasiyentin orqanizmində işləyə bilər.

Suni qan tozu görünüşə görə paprikaya oxşayır, asanlıqla istənilən yerə daşınır və hazırlandıqdan sonra 1 il ərzində istifadə oluna bilər. Süni qan təmizlənmiş hemoqlobinin əsasında hazırlanıb.

Süni qanın bəzi mənfi, çatışmayan cəhətləri də var – insanın bütün qanını bu qanla əvəz etmək mümkün deyil, çünki süni qan immun sisteminin fəaliyyətində iştirak etmək qabiliyyətinə malik deyil. Qeyd edək ki, süni qan hələlik yalnız orqanizm boyu oksigeni daşımaq funksiyasını yerinə yetirir. Lakin bu da az deyil. İrimiqyaslı qəzalar, zəlzələlər, müharibələr və s. zamanı toz şəklində süni qanın istifadəsi külli miqdarda qan itirmiş yüzlərlə insanın həyatını xilas edə bilər.

## BAŞSAĞLIĞI

Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının üzvləri və “Yeni Yol”un əməkdaşları Akif Xansultanlıya anası

**Həcər Kamil qızının**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin üzvləri və “Varlıq” Mədəniyyət Mərkəzinin əməkdaşları Akif Xansultanlıya anası

**Həcər Kamil qızının**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Təsisçi:**
*“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”*

***Redaktor*:**
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru*:**
**Hacı Bəkiroğlu**

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 595 92 25 70*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.